# SÜLHƏ DOĞRU NÖVBƏTİ ADDIM

Ermənistanda Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın on üçüncü iclası keçirilib.

Görüş zamanı tərəflər delimitasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı təşkilati və texniki məsələlər üzrə ətraflı fikir mübadiləsi aparıblar. Tərəflər delimitasiya işlərinin həyata keçirilməsi qaydasına dair bir sıra təlimat layihələrinin mətnlərini mübadilə ediblər. Baş nazir müavinləri ayrıca fikir mübadiləsi də aparıblar.

SƏHİFƏ 4-də




‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

2 MAY ŞƏNBƏ 2026 № 16 (4267) Qiyməti - 60 qəpik www.kaspi.az



## TƏBİİ FƏLAKƏT QARŞISINDA DÖVLƏT QALXANI

Prezident İlham Əliyevin müvafiq Sərəncamı böhran anında dövlət-vətəndaş həmrəyliyinin gücünü göstərir. Qlobal iqlim dəyişikliyinin yaratdığı gələcək risklərin minimuma endirilməsi strategiyası da əsas hədəfdir.

SƏHİFƏ 5-də



## İNVESTİSİYA PORTFELİ ÜÇÜN ÇEVİK SİYASƏT

Dövlət Neft Fondunun 2026-cı ilin I rübündə qızıl ehtiyatlarını 178,1 tona qədər azaltması iqtisadi dairələrdə maraq doğurub. Ekspertlər prosesi uğurlu çevik maliyyə siyasəti kimi dəyərləndirirlər.

SƏHİFƏ 7-də



## SAXTA DƏRMANLAR NECƏ AŞKARLANACAQ?

Saxta dərmanların aşkarlanması üçün rəqəmsal nəzarət sistemi hazırlanır. Bu sistem işə düşdükdən sonra dərman vasitələrini istehsal prosesindən istifadə mərhələsinə qədər izləmək mümkün olacaq.

SƏHİFƏ 11-də

## AZƏRBAYCAN YENİ DİPLOMATİK MƏRKƏZ STATUSUNDA



# AVROPANIN AZƏRBAYCANA MARAĞI ARTIR

Azərbaycan coğrafi mövqeyindən səmərəli istifadə edərək Cənubi Qafqazı mühüm tranzit və enerji qovşağına çevirib. Son dövrlərdə Avropa ölkələrinin Azərbaycana artan marağı da bu reallığın qəbulu anlamına gəlir.

### SON BİR AYDA ARDICIL RƏSMİ SƏFƏRLƏR

Çexiyanın Baş naziri Andrey Babiş Aİ sərhədlərindən kənarda ilk rəsmi səfərini Azərbaycana etdi. Diqqət çəkən digər bir məqam isə, son bir ay ərzində Litvanın Baş naziri, Latviya və Ukrayna Prezidentlərinin də Azərbaycana səfər etmələridir.

### AVROPA ÜÇÜN VACİB STRATEJİ MƏKAN

Bu gün Azərbaycan dünyada diplomatik vasitəçilikdə mühüm aktor olaraq qəbul edilir. Kataklizmlər fonunda Bakının yürütdüyü siyasət və təqdim etdiyi təhlükəsiz alternativlər Azərbaycanı Avropa üçün strateji məkana çevirir.

SƏHİFƏ 3-də

“Bu işin “dəmlənməsinə” vaxt lazım idi”

## “İSTƏYİRƏM SƏHNƏDƏ NƏFƏSİM KƏSİLSİN”



Əslən Cənubi Azərbaycandan olan kanadalı xoreoqraf Saşar Zərif Bakıdadır. O, 35 ildir ki, rəqsdə əsrlərdən gələn ənənə ilə müasirlik arasında körpü qurmağa çalışır. Tanınmış rəqqasın görkəmli xanəndə Alim Qasımovla Torontodakı uğurlu çıxışından sonra Bakıda Milli Konservatoriyada keçirilən konsertdə muğamın sədaları altında rəqs performansları böyük maraqla qarşılanıb.

SƏHİFƏ 8-9-da



## DİPLOMATLAR QARABAĞA SƏFƏR EDİBLƏR

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Xocalıya səfər ediblər. Nümayəndə heyətinə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev rəhbərlik edib.

SƏHİFƏ 2-də



## PANDA DİPLOMATİYASINDAN STRATEJİ RƏQABƏTƏ

ABŞ Prezidenti Donald Trampın Çinə səfəri səbirsizliklə gözlənilir. Əgər səfər reallaşarsa, bu, ABŞ Prezidentinin son on ildə Çinə ilk səfəri olacaq. Tramp sonuncu dəfə Çinə 2017-ci ilin noyabr ayında səfər edib.

SƏHİFƏ 6-da



## SÖKÜLƏCƏK BİNALAR GƏLİR MƏNBƏYİNƏ ÇEVRİLİR

Paytaxtın əmlak bazarında “xruşşovka” ajiotajı yaşanır. Daha böyük kompensasiya əldə etmək məqsədilə həyata keçirilən kütləvi alışlar istismar vaxtı keçmiş binalarda mənzillərin qiymətini bahalaşdırıb.

SƏHİFƏ 12-də



Xəzərdə artan zəlzələ aktivliyi

SƏHİFƏ 13-də



“SOCAR bu təşəbbüsə vacib layihə kimi yanaşacaq”

SƏHİFƏ 10-da



Sürücülük vəsiqəmizi hansı ölkələr tanıyır?

SƏHİFƏ 14-də



Dəb, opera və futbol şəhəri

SƏHİFƏ 15-də



Tiranada parlaq mənzərələr

SƏHİFƏ 16-da



## Diplomatik nümayəndələr Qarabağa səfər ediblər

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Qarabağa səfər çərçivəsində mayın 1-də Xocalıya səfər ediblər. “Report” xəbər verir ki, nümayəndə heyətinə Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev rəhbərlik edib.

Qonaqlar əvvəlcə Xocalı şəhərində yerləşən Xocalı Soyqırımı Memorial kompleksini ziyarət ediblər. E. Yusubov qonaqlara Memorial kompleksin tikintisi, aparılan abadlıq və quruculuq işləri haqqında informasiyaları təqdim edib, eyni zamanda xarici diplomatlara 1992-ci ildə ermənilər tərəfindən həyata keçirilmiş işğalçılıq siyasəti və Xocalı qətliamı barədə də ətraflı məlumat verilib. Sonra qonaqlara azad edilmiş ərazilərdə infrastrukturun bərpası, yaşayış məntəqələrinin yenidən qurulması və əhalinin doğma torpaqlarına qayıdışını təmin edən Böyük Qayıdış proqramının icrası barədə geniş məlumat verilib.

Diplomatik korpusun nümayəndələri səfər çərçivəsində Xankəndidə də olublar.



## Azərbaycanın Avropa Parlamenti ilə əməkdaşlığı dayandırılıb

Azərbaycanın Avropa parlamenti ilə bütün sahələrdə əməkdaşlıq əlaqələri dayandırılıb. “Report” xəbər verir ki, bununla bağlı müddəa Milli Məclisin plenar iclasında müzakirə olunan qərar layihəsində əks olunub.

Qərar layihəsi səsə qoyularaq qəbul edilib. Qərara əsasən, Milli Məclisin Avropa Parlamenti ilə bütün istiqamətlər üzrə əməkdaşlıq əlaqələri dayandırılır. Parlamentin Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin fəaliyyətində iştirakına son qoyulur. Avronest Parlament Assambleyasının nizamnaməsinə uyğun olaraq Milli Məclisin bu təşkilatda üzvlüyünə xitam verilməsi barədə prosedur qaydalarının icrasına başlanılır və prosedur dövründə Milli Məclisin nümayəndə heyəti Avronest Parlament Assambleyasının tədbirlərinə qatılmayacaq.

# BAKININ MƏRKƏZİNDƏ DAHA BİR MƏKAN ABADLAŞDIRILIB



**Azərbaycan prospektindən başlayaraq Nigar Rəfibəyli küçəsinin bir hissəsi də daxil olmaqla, İslam Səfərli küçəsi boyunca Mirzəağa Əliyev küçəsinədək olan ərazi tam şəkildə abadlaşdırılıb. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva burada görülmüş işlərlə tanış olublar.**

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mayın 1-də Bakı şəhərinin Səbail və Yasamal rayonlarını əhatə edən İslam Səfərli küçəsinin yenidənqurmadan sonra açılışında iştirak ediblər. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına və birinci xanıma görülmüş işlər barədə məlumat verib.



### ƏRAZİ TAM ŞƏKİLDƏ ABADLAŞDIRILIB

Bildirilib ki, Azərbaycan prospektindən başlayaraq Nigar Rəfibəyli küçəsinin bir hissəsi də daxil olmaqla, İslam Səfərli küçəsi boyunca Mirzəağa Əliyev küçəsinədək olan ərazi tam şəkildə abadlaşdırılıb. Bu ərazidən Mərkəzi Parka piyadaların rahat hərəkəti üçün keçid təmin olunub.

İslam Səfərli küçəsi ilə kəsişən 8 küçədə, eyni zamanda, Təbriz Xəlilbəyli və Mirzə İbrahimov küçələrinə qədər olan hissədə abadlıq işləri yerinə yetirilib. Abadlaşdırılan küçələrin ümumi uzunluğu 1350 metrdir. Bu küçələrdə su və çirkab sularının axıdılması xətləri tamamilə yenilənib, qaz xətləri yeraltı sistemlə əvəzlənib. Bundan başqa, küçələrdə yerləşən müxtəlif təyinatlı binalarda yenidənqurma və bərpa işləri görülüb, sakinlərin və şəhərimizin qonaqlarının istirahəti üçün lazımi şərait yaradılıb, oturacaqlar qoyulub, geniş yaşıllaşdırma işləri həyata keçirilib.

## Fəvvarələr meydanından Qış parkına birbaşa çıxış



Layihənin icrası piyadalar üçün Fəvvarələr meydanından birbaşa Qış parkına çıxış imkanı yaradır. Burada XIX əsrin sonu-XX əsrin əvvəllərində inşa edilmiş yerli əhəmiyyətli memarlıq abidələri də mövcuddur. Bu isə ərazinin istər yerli sakinlər, istərsə də qonaqlar üçün cəlbediciliyini daha da artırır.

Avtomobil yollarının piyada yolları ilə əvəzlənməsi ərazidəki mağaza, kafe və restoranların fəaliyyətinə müsbət təsir edəcək, kiçik bizneslər üçün yeni imkanlar yaradacaq.

## Müasir şəhərsalma tendensiyasına uyğun atılan addımlar

Qeyd edək ki, bu gün paytaxtımız dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Bakının sosial infrastrukturunun müasirləşdirilməsi, sakinlərin və şəhərə gələn qonaqların rahatlığının təmin edilməsi istiqamətində indiyədək ardıcıl tədbirlər görülüb və bu layihələr hazırda da davam etdirilir. Təsadüfi deyil ki, paytaxtımıza gələn qonaqlar şəhərin gözəlliyinə, təmizliyinə valeh olduqlarını həmişə vurğulayırlar. Bakıda müasir şəhərsalma tendensiyalarına uyğun atılan addımların tərkib hissəsi olan mikromobillik həllərinin uğurla icrası, avtomobil yollarının piyada yolları ilə əvəzlənməsi həm sakinlərin, həm də turistlərin rahatlığına xidmət edir. İnsanların sıx olduğu yerlərdə belə layihələrin icrası, eyni zamanda, son dövrlərdə həyata keçirilən şəhərsalmayönümlü planlaşdırmaya da töhfə verir. Beləliklə, paytaxtın davamlı inkişaf strategiyasının mühüm elementi olan bu addımlar Bakının həm müasir, həm də piyadalar üçün rahat şəhər kimi inkişafında xüsusi rol oynayır.



# AVROPANIN AZƏRBAYCANA MARAĞI ARTIR

Azərbaycan coğrafi mövqeyindən maksimum səmərəli istifadə edərək Cənubi Qafqazı mühüm tranzit və enerji qovşağına çevirib. Son dövrlərdə Avropa ölkələrinin Azərbaycana artan marağı da bu reallığın qəbulu anlamına gəlir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Çexiyanın Baş naziri Andrey Babiş Avropa İttifaqı (Aİ) sərhədlərindən kənarda ilk rəsmi səfərini Azərbaycana etdi. Tək bu fakt Aİ üzvü olan Çexiya ilə Azərbaycan arasında strateji münasibətlərin hansı səviyyədə olduğunu göstərir. Diqqət çəkən digər bir məqam isə, son bir ay ərzində Aİ-ni təmsil edən Litvanın baş naziri İnqa Ruqiniene, Latviyanın Prezidenti Edqars Rinkeviçs və Aİ-yə can atan Ukraynanın Prezidenti Volodimir Zelenskinin Azərbaycana səfər etmələridir. Son dövrlərdə Azərbaycana müxtəlif dövlət və hökumət başçılarının, xüsusilə də Avropa liderlərinin səfərlərinin intensiv xarakter alması ölkəmizin geosiyasi və geoiqtisadi əhəmiyyətinin artdığını aydın şəkildə nümayiş etdirir. Çexiya Baş naziri Andrey Babişin səfəri də yalnız ikitərəfli münasibətlərin inkişafı baxımından deyil, eyni zamanda, Azərbaycanın beynəlxalq miqyasda mövqeyinin gücləndiyini göstərən mühüm fakt kimi dəyərləndirilməlidir.

### AVROPA BU GÜN ENERJİ HAQQINDA DANIŞIR

Qeyd edək ki, A.Babiş Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyevlə görüşüb. İkitərəfli münasibətlərin inkişafına dair müzakirələr aparılıb. Münasibətlərimizin strateji mahiyyət daşıdığı bir daha ən ali səviyyədə qeyd olunub. Tərəflərin mətbuata birgə bəyanatı zamanı Prezident İlham Əliyev bildirib ki, Çexiya ilə əməkdaşlığımızın böyük hissəsi energetika sektoruna aiddir: "Burada da uzun illər ərzində Çexiya və Azərbaycan çox etibarlı tərəfdaşlardır. Azərbaycan nefti Çexiyaya ixrac edilir və Çexiyanın enerji balansında önəmli yer tutur. Azərbaycan dünya bazarlarına öz enerji resurslarını ixrac edən etibarlı ölkələr sırasındadır. Bunu, o cümlədən Avropa İttifaqı da qeyd edir və Azərbaycanı etibarlı tərəfdaş kimi qiymətləndirir. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir və onlardan 10 ölkə Avropa İttifaqının üzvüdür".

Azərbaycanın Aİ üçün artan rolunu elə üzv ölkələrin rəhbərləri də etiraf edir. Bakıya intensiv səfərlərin mahiyyətində həm də Azərbaycanın enerji təhlükəsizliyinin təminində mühüm tərəfdaş olması amili də dayanır. Çexiya Baş nazirinin də səfəri bu baxımdan istisna deyil. A.Babiş bildirir ki, Avropa bu gün enerji haqqında danışır, çünki neftayırma zavodlarına xammal tələb olunur, müxtəlif məhsulların istehsalı üçün təbii qaz lazımdır: "Azərbaycan Çex Respublikasında ən iri neft təchizatçısıdır. İdxal edilən neftin 42 faizi Azərbaycandan daxil olur".

## Müdafiə sənayesi sahəsində əməkdaşlıq

Azərbaycanın dünyada artan rolu tək enerji təhlükəsizliyi ilə yekunlaşmır. Burada ölkəmizin regional sabitliyin təminində əsas aktor olması amili də qeyd edilməlidir. Dünyada artan gərginliklər fonunda müdafiə sənayesi xüsusilə diqqət çəkir. Tarixi qələbəmizdən sonra ölkəmizə münasibətdə bir çox maneələrin aradan qaldırılması, Azərbaycanın bu sahə ilə bağlı atdığı addımlar əməkdaşlıq üçün yeni imkanlar vəd edir. Burada Avropa ölkələrinin marağı da qeyd olunmalıdır. İstər Çexiya Baş nazirinin, istərsə də Ukrayna Prezidentinin Azərbaycana səfərləri çərçivəsində bu məqama da xüsusi vurğu edilib.

Prezident İlham Əliyev bildirib ki, Bakı və Praqa arasında müdafiə sənayesi sahəsində uzun müddət ərzində uğurlu əməkdaşlıq qurulub: "Biz Çexiyadan bir çox hərbi təyinatlı məhsullar



alırıq və indiki mərhələdə birgə istehsalla bağlı konkret layihələr üzərində danışıqlar gedir. Əminəm ki, bu sahə də çox genişmiqyaslı olacaq. Çünki Azərbaycan öz müdafiə potensialını, o cümlədən yerli istehsal hesabına təmin edir və gələcəkdə bu sahədə böyük təcrübəsi olan Çexiya kimi ölkələrlə bizim müştərək işlərimiz xüsusi önəm daşıyır".

Baş nazir Andrey Babişin də açıqlamaları diqqət çəkir: "Hər bir ölkə öz suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını müdafiə etməyə hazır olmalıdır. Bu nöqteyi-nəzərdən düşünürəm ki, biz böyük artım potensialı olan bu sahədə əməkdaşlıq üçün çox güclü əsas qoyduq".

## Azərbaycan yeni diplomatik mərkəz statusunda

Bu gün Azərbaycan dünyada davamlı inkişaf, tranzit, enerji təhlükəsizliyi və diplomatik vasitəçilik sahələrində qlobal gündəmin formalaşmasına təsir edən mühüm aktor olaraq qəbul edilir. Dünyada yaşanan kataklizmlər fonunda rəsmi Bakının təqdim etdiyi layihələr, yürüdülən siyasət və gərginlik ocaqlarından yan keçən təhlükəsiz alternativlər Azərbaycanı Avropa üçün strateji məkana çevirir. Buraya həm də sabit iqtisadi inkişaf, sülh gündəliyinin irəlilədilməsi, çevik siyasi qərarların qəbulu, ən əsası isə ali rəhbərliyin qətiyyətli iradəsi daxildir. Bu baxımdan, Azərbaycanın Şərqdən Qərbə, Şimaldan Cənuba doğru çoxvektorlu siyasəti, qarşılıqlı maraqlar çərçivəsində əməkdaşlıq bağlarını genişləndirməsi rəsmi Bakının yeni diplomatik mərkəz statusunu gücləndirməsinə şərait yaradır. Azərbaycan bu gün Avropanın yeni praqmatik siyasətinin mərkəzinə çevrilərək, həm Şərqə, həm də Qərbə üz tutan strateji istiqamətlərin kəsişdiyi nöqtədə öz nüfuzunu möhkəmləndirir. Azərbaycan coğrafi mövqeyindən maksimum səmərəli istifadə edərək Cənubi Qafqazı mühüm tranzit və enerji qovşağına çevirib. Son dövrlərdə Avropa ölkələrinin Azərbaycana artan marağı da məhz bu reallıqların qəbulu anlamına gəlir. Gələcək perspektivdə Azərbaycanın istər regional, istərsə də beynəlxalq miqyasda rolunun daha da güclənəcəyi istisna deyil.

# SÜLHƏ DOĞRU NÖVBƏTİ ADDIM

Regionda mövcud olan gərgin vəziyyətə, Ermənistanda seçki ab-havasının hökm sürməsinə baxmayaraq, Bakı ilə İrəvan arasında siyasi dialoq davam edir. Tərəflərin ortaya qoyduğu qarşılıqlı siyasi iradə prosesin davamlılığını təmin edir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Azərbaycan və Ermənistan arasında sülh prosesinin irəlilədilməsi, qarşılıqlı etimad mühitinin gücləndirilməsi istiqamətində növbəti mühüm addım atılıb. Aprelin 29-da Ermənistanda, Ağverəndə Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın on üçüncü iclası keçirilib.

### KOMİSSİYALARIN ON ÜÇÜNCÜ GÖRÜŞÜ

Dövlət Komissiyasının Katibliyinin məlumatına görə, görüş zamanı tərəflər delimitasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı təşkilati və texniki məsələlər üzrə ətraflı fikir mübadiləsi aparıblar. Tərəflər delimitasiya işlərinin həyata keçirilməsi qaydasına dair bir sıra təlimat layihələrinin mətnlərini razılaşdırıb və mübadilə ediblər. Həmçinin Şahin Mustafayev və Mher Qriqoryan qarşılıqlı maraq doğuran məsələlər üzrə ayrıca fikir mübadiləsi aparıblar. Qeyd olunub ki, Azərbaycan Respublikasının ərazisi ilə Ermənistan Respublikasına yüklərin tranziti uğurla həyata keçirilir və hazırda da davam edir. Məmnunluqla vurğulanıb ki, Azərbaycanın Ermənistana neft məhsulları tədarük etməsi iki ölkə arasında iqtisadi-ticari əlaqələrin formalaşmasının göstəricisidir. Həmçinin tərəflərin işgüzar dairələrinin nümayəndələrinin iştirakı ilə iqtisadi-ticari əməkdaşlığın inkişafı, malların və xidmətlərin qarşılıqlı tədarükü, həmçinin tranzit daşımaları məsələləri müzakirə olunub. Xüsusi olaraq qeyd edilib ki, əldə olunan nəticələr Prezident İlham Əliyevin və Baş nazir Nikol Paşinyanın siyasi iradəsi sayəsində mümkün olub. Tərəflər komissiyaların Azərbaycanda növbəti iclasının tarixinin işçi qaydada müəyyən edilməsi barədə razılığa gəliblər.

## QEYRİ-MÜMKÜN OLANLAR ARTIQ REALLIQDIR

Qeyd edək ki, bölgəmizin birbaşa sərhədlərində mövcud olan gərgin vəziyyət, həmçinin Ermənistanda seçki ab-havasının hökm sürməsinə baxmayaraq, tərəflərin ortaya qoyduğu qarşılıqlı siyasi iradə prosesin davamlılığını təmin edir. Komissiyaların budəfəki görüşünü fərqləndirən ən mühüm məqamlardan biri də onun Ermənistan ərazisində təşkil olunması, AZAL-a məxsus təyyarənin İrəvan hava limanına enişidir. Hansı ki, bir müddət əvvələ qədər bu addımların reallaşacağını proqnozlaşdırmaq belə qeyri-mümkün görünürdü.




### TƏRƏFLƏR MÖVCUD DURUMDAN RAZIDIR

Sülh gündəliyi hər iki tərəfdə məmnunluqla qarşılanır. Azərbaycan dəfələrlə bəyan edib ki, Vaşinqton görüşündən keçən müddət ərzində Azərbaycan və Ermənistan arasında de-fakto sülh mövcuddur. Sərhədlərdə sakitlikdir, gərginlik isə öz yerini tədricən bir sıra sahələr üzrə qarşılıqlı əməkdaşlığa verməkdədir.

Ermənistan da vəziyyətdən razıdır. Bunu baş nazir Nikol Paşinyanın son açıqlamalarından da görmək mümkündür. N.Paşinyan Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevin bu ölkəyə səfərini "tarixi hadisə" adlandırıb. "Hesab edirəm ki, çox mühüm hadisə baş verib, iki ölkənin baş nazir müavinlərinin səfərlərini sülh prosesi və onun institusionallaşması baxımından tarixi hadisə kimi qiymətləndirirəm. Şadam ki, biz bu mərhələyə çatmışıq", - Paşinyan deyib. Onun sözlərinə görə, Ermənistan və Azərbaycandan olan iş adamları əvvəllər iki ölkənin hökumətləri vasitəsilə mal siyahıları mübadiləsi aparsalar da, artıq buna ehtiyac yoxdur. Paşinyan qeyd edib ki, bundan sonra Ermənistan və Azərbaycandan olan iş adamları bir-biri ilə birbaşa işləyə bilərlər. Tərəflərin bir-birinə tədarük etdiyi malların çeşidi genişlənə bilər.

## GÖRÜŞƏNLƏR TƏK RƏSMİ NÜMAYƏNDƏLƏR DEYİL

Tərəflərin sülh iradəsi tək hökumət nümayəndələri və rəsmi şəxslərin təmasları ilə yekunlaşmır. Bu prosesdə vətəndaş cəmiyyəti təmsilçilərinin qarşılıqlı səfərləri də mühüm rol oynayır. İctimaiyyət nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili, yüksək səviyyəli görüşlərdə müəyyən məqamlarla bağlı tərəflərin mövqelərinin vətəndaş cəmiyyəti nümayəndələrinin diqqətinə çatdırılması etimad mühitinin formalaşdırılması və dialoqun təşkili baxımından da mühüm əhəmiyyətə malikdir.

Digər bir məqam isə odur ki, artıq tərəflər arasında tranzit əlaqələri də tam anlamıyla açıqdır. Azərbaycan ali rəhbərliyinin xoşməramlı addımı olaraq tranzit embarqosunun ləğvindən sonra Ermənistan Rusiya və Mərkəzi Asiya ölkələrinə birbaşa çıxış əldə edib. Ölkənin tələb duyduğu məhsullar intensiv şəkildə Azərbaycan üzərindən Ermənistana maneəsiz daşınır. Bu prosesdə də davamlılıq təmin edilib.

### SON QƏRAR ÜÇÜN ZAMAN YETİŞİB

Müşahidələr onu göstərir ki, de-fakto sülhün de-yure sülhə çevrilməsi üçün münbit şərait formalaşıb. Bu məsələnin məntiqi yekunu olaraq qarşı tərəfin atmalı olduğu bir sıra prinsipial addımlar qalıb ki, onların da reallaşması Ermənistan rəhbərliyinin və cəmiyyətinin iradəsindən asılıdır. Azərbaycanın mövqeyi bu məsələdə hər zaman olduğu kimi açıq və dəyişməzdir. Sülhə əngəl yaradan heç bir qaranlıq məqam qalmamalıdır.

# TƏBİİ FƏLAKƏT QARŞISINDA DÖVLƏT QALXANI

Prezident İlham Əliyevin müvafiq Sərəncamı böhran anında dövlət-vətəndaş həmrəyliyinin gücünü göstərir. Eləcə də qlobal iqlim dəyişikliyinin yaratdığı gələcək risklərin minimuma endirilməsi strategiyası əsas hədəfdir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Prezident İlham Əliyev sel və daşqınların təhlükəli və zərərli təsirlərinə qarşı mübarizə ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində güclü leysan yağışları və yaranan sel suları nəticəsində dəymiş zərərin fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlərin davamlılığının təmin edilməsi, habelə gələcəkdə analoji halların təkrarlanmaması üçün dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan ümumilikdə 85 milyon 869 min 260 manat vəsait ayrılıb.

### "ÇAĞIRIŞLARA ADEKVAT ÇEVİK QƏRARLAR QƏBUL OLUNUR"

Millət vəkili Müşfiq Məmmədlinin sözlərinə görə, Prezident İlham Əliyev tərəfindən imzalanmış Sərəncam birmənalı olaraq dövlətin vətəndaşlara yönəlik sosial siyasətinin ardıcıl və çevik şəkildə davam etdirildiyini nümayiş etdirir: "Bu qərar yalnız mövcud problemlərin, qısamüddətli aradan qaldırılmasına deyil, eyni zamanda gələcək risklərin azaldılmasına hesablanmış çoxşaxəli və kompleks yanaşmanı özündə ehtiva edir. Sərəncamın ən mühüm cəhətlərindən biri də onun operativliyi və konkret nəticələrə hesablanmasıdır. Fəlakətin baş verməsindən sonra süni ləngimələr olmadan, dövlət başçısının birbaşa tapşırığı ilə vəsaitin qısa müddətdə ayrılması və aidiyyəti qurumların icra mexanizmlərinin dərhal işə salınması göstərir ki, Azərbaycanda vətəndaşların problemlərinə biganə yanaşma yoxdur və ola da bilməz. Əksinə, yaranmış hər bir çətinlik, bölgələrdən gələn hər bir müraciət dövlət səviyyəsində, ən ali rəhbərlik tərəfindən diqqətlə qiymətləndirilir, bu çağırışlara adekvat olaraq çevik qərarlar qəbul olunur. Bu çevikliк cəmiyyətdə dövlətə olan sarsılmaz etimadı daha da gücləndirir".


Müşfiq Məmmədli

## "İnsanların həyatına sürətli və müsbət təsir göstərəcək"

Millət vəkilinin fikrincə, bu cür maddi və mənəvi dəstək zərərçəkən ailələrin sosial-iqtisadi tənəzzülünün qarşısını alır: "Milli Məclisdə təmsil etdiyim bölgələrin də bu Sərəncam çərçivəsində əhatə olunması həm mən, həm də seçicilərim üçün xüsusi əhəmiyyət daşıyır. Çünki son dövrlərdə ölkəmizin şimal və dağlıq relyefli ərazilərində baş verən intensiv yağıntı, kəskin hava şəraiti nəticəsində bəzi yaşayış məntəqələrində evlərə, kənd təsərrüfatlarına və strateji infrastruktur obyektlərinə ciddi ziyan dəymişdi. İnsanların böyük zəhmətlə qurduğu yaşayış yerləri təbiətin zərbəsi altında qalmışdı. Məhz ayrılan vəsait hesabına zərər çəkmiş vətəndaşların qəzalı evlərinin əsaslı bərpası, tam uçmuş tikililərin əvəzinə yeni fərdi yaşayış evlərinin tikintisi, eləcə də yol, elektrik və su təchizatı kimi mühüm ictimai infrastrukturun yenidən qurulması insanların gündəlik həyatına, onların məişətinin normallaşmasına çox sürətli və müsbət təsir göstərəcəkdir".



M.Məmmədli bildirdi ki, Sərəncam yalnız anlıq həllərlə məhdudlaşmır. Sənəd dərin elmi-mühəndislik yanaşmasına əsaslanır: "Zərurət yaranan ərazilərdə istinad divarlarının tikintisi, köhnəlmiş drenaj sistemlərinin tam müasirləşdirilərək təkmilləşdirilməsi, irihəcmli su ötürücü xətlərin möhkəmləndirilməsi kimi qabaqlayıcı tədbirlər gələcəkdə oxşar halların, ekstremal təbiət hadisələrinin təsirinin tamamilə minimuma endirilməsinə xidmət edəcək. Bu isə qlobal iqlim dəyişikliklərinin mənfi təsirləri və artan yağıntı normaları fonunda ölkəmizin infrastruktur dayanıqlılığının, yaşayış məntəqələrimizin təhlükəsizliyinin artırılması baxımından olduqca vacibdir".

## Prezidentin Sərəncamı ən qısa zamanda icra olunacaq

Milli Məclisin deputatı Hikmət Babaoğlunun sözlərinə görə, dünyanın ən inkişaf etmiş, güclü iqtisadiyyata malik ölkələri belə sel, daşqın, zəlzələ və ya torpaq sürüşməsi kimi təbiət hadisələrinin qarşısında bəzən aciz qalır: "Lakin fəlakətin özündən daha vacib olan fundamental bir məsələ var - böhran anında və fəlakətdən dərhal sonra dövlətin nümayiş etdirdiyi reaksiya. Azərbaycan dövləti bu cür ağır sınaq anlarında, fors-major hallarda daima öz vətəndaşlarının yanında olur, onları təbiətin amansız zərbələri ilə heç vaxt tək buraxmır. Müvafiq Sərəncama diqqət etsək, görəcəyik ki, sənədin hər bir bəndinin arxasında birbaşa insan amili və humanizm prinsipləri dayanır. Təbii fəlakət və xüsusilə son aylar baş vermiş şiddətli sel-daşqınlar nəticəsində zərər çəkmiş vətəndaşlarımızın problemlərinin anında həlli, onlara dəymiş zərərin qarşısının alınması üçün dövlət büdcəsindən ciddi məbləğdə maliyyə vəsaiti ayrılıb. Dağılmış evlərinin bərpası, məişət şəraitinin yaxşılaşdırılması və kommunikasiya xətlərinin yenidən qurulması ən qısa zamanda icra olunacaq".


Hikmət Babaoğlu

### "DÖVLƏT DARDA QALAN HƏR KƏSİ XİLAS EDİR"

H.Babaoğlu bildirdi ki, Azərbaycan Prezidentinin fəaliyyətinin mərkəzində vətəndaşların rifahı, onların sosial təminatı və təhlükəsizliyinin qorunması durur: "Təbii fəlakət anında evini, əmlakını itirmiş, illərin zəhməti gözünün önündə məhv olmuş insanın ən çox ehtiyac duyduğu şey maddi yardımla yanaşı, həm də mənəvi dəstəkdir. O, dövlətin şəfqətli və qoruyucu əlini öz çiyinlərində hiss etməlidir. Dövlət başçısının bu qərarı məhz həmin mənəvi ehtiyacı ödəyir. Düşünürəm ki, bu Sərəncam bütövlükdə Azərbaycan cəmiyyətində böyük rəğbətlə, ictimai minnətdarlıqla qarşılanır. Bu gün kiminsə evini sel aparıbsa, sabah başqa bir bölgədə fərqli bir fəlakət yaşana bilər. Sərəncamın cəmiyyətə verdiyi ən böyük mesaj budur ki, coğrafiyadan və məkandan asılı olmayaraq, dövlət darda qalan hər kəsi xilas edir".

Deputatın fikrincə, vətəndaşda belə bir qəti düşüncə və arxayınlıq formalaşır ki, o, qlobal iqlim böhranlarının, dağıdıcı fəlakətlərin və müxtəlif xarakterli risklərin qarşısında tək deyil: "Onun arxasında Azərbaycan dövləti dayanır".

# PANDA DİPLOMATİYASINDAN STRATEJİ RƏQABƏTƏ



ABŞ Prezidenti Donald Trampın Çinə səfəri səbirsizliklə gözlənilir. Əgər səfər reallaşarsa, bu, ABŞ Prezidentinin son on ildə Çinə ilk səfəri olacaq. Tramp sonuncu dəfə Çinə 2017-ci ilin noyabr ayında səfər edib.



AZƏR NURİYEV

Dünyanın ərazisinə və resurslarına görə üç böyük dövlətindən (ABŞ, Rusiya və Çin) ikisi - ABŞ və Çin arasında illərdir davam edən gərginlik səngimir. Bu iki ölkənin dünya liderliyi uğrunda mübarizəsi artıq həlledici mərhələyə daxil olur. Münasibətlər bir neçə əsas istiqamətdə kəskinləşməkdədir. Birinci məsələ iqtisadi və ticaridir - tərəflər arasında ticarət tarifləri və bazara çıxış məhdudiyyətləri ilə bağlı mübarizə gedir. Xüsusilə yüksək texnologiyalı məhsulların ixracına qoyulan qadağalar Pekin tərəfindən kəskin qarşılanır. İkinci məsələ texnoloji rəqabətdir. Süni intellekt, yarımkeçiricilər (çiplər) və 5G texnologiyaları üzərində üstünlük uğrunda yarış gərginliyin nüvəsini təşkil edir. ABŞ Çinin bu sahələrdəki inkişafını milli təhlükəsizliyinə təhdid kimi qiymətləndirir. Digər məsələ Tayvanla bağlıdır. Cənubi Çin dənizi və Tayvan boğazındakı hərbi aktivlik ən həssas nöqtədir. Vaşinqtonun bölgədəki hərbi mövcudluğu və Çinin buna cavab olaraq keçirdiyi təlimlər hərbi toqquşma riskini gündəmdə saxlayır. Diplomatik müstəvidə gərginliyin azaldılması üçün yüksək səviyyəli telefon danışıqları və görüşlər keçirilsə də, fundamental fikir ayrılıqları hələ də qalmaqdadır. Hazırda münasibətlər "nəzarət edilən rəqabət" formatındadır. Lakin hər iki tərəf strateji maraqlarını qorumaq üçün sərt addımlar atmağa davam edir.

Bütün bu məsələlərə isə mayda aydınlıq gətirilə bilər. Məhz mayda Donald Tramp və Çin Xalq Respublikasının sədri Si Cinpinin tarixi adlandırılan görüşü baş tutmalıdır.

## SON ON İLDƏ ÇİNƏ İLK SƏFƏR

Trampın səfəri reallaşarsa, bu, ABŞ Prezidentinin son on ildə Çinə ilk səfəri olacaq. Tramp sonuncu dəfə Çinə 2017-ci ilin noyabr ayında səfər edib. Səfərdən əvvəl Çin dövlət mediası ABŞ rəsmilərini çinli həmkarlarını ziyarət etməyə və onlarla qarşılıqlı əlaqədə olmağa dəvət edib. "Global Times"in məqaləsində ölkələr arasında insanlararası mübadilənin olmaması və ABŞ Prezidentinin Çinə uzun müddətdir səfər etməməsinə vurğu edilib. "Tarix dəfələrlə göstərib ki, həm Çin, həm də ABŞ əməkdaşlıqdan qazanır, qarşıdurmadan isə itirir", - deyə bəyanatda bildirilir.

## TƏRƏFLƏR GÖRÜŞƏ NİKBİN YANAŞIR

Tərəflər də görüşə nikbin yanaşır. Donald Tramp bildirib ki, onun Si Cinpinlə görüşü tarixi əhəmiyyət daşıyacaq. "Çin səfərimiz xüsusi olacaq və potensial olaraq tarixi əhəmiyyət kəsb edəcək. Mən görüşü səbirsizliklə gözləyirəm - çox iş görüləcək", - deyə o qeyd edib. ABŞ Prezidenti əlavə edib ki, görüşdə bir çox məsələlər üzrə irəliləyiş əldə olunacağı gözlənilir. Çin XİN isə Trampın səfəri ilə bağlı müzakirələrin aparıldığını təsdiqləyib. Qeyd edək ki, ötən ilin oktyabrında Cənubi Koreyanın Pusan şəhərində Cinpin ilə Trampın görüşündə iki ölkə arasında iqtisadi-ticari əməkdaşlığın normallaşdırılması ilə yanaşı, liderlərin qarşılıqlı səfərlərinə dair razılıq da əldə olunub.



## "PATRİOT", "NASAMS" RAKETLƏRİ, DRON VƏ ARTİLLERİYA SİSTEMLƏRİ

İstisna deyil ki, gözlənilən görüş ABŞ-nin Tayvana 20 milyard dollarlıq yeni silah satışı ilə bağlı qeyri-müəyyənlik şəraitində keçsin. Silah satışı ötən ilin dekabrında elan edilən 11 milyard dollarlıq müqaviləyə əlavə olacaq. Silahlara "Patriot" və "NASAMS" raketləri, dron və artilleriya sistemləri daxil olacaq. Bu, Tayvan üçün indiyə qədər ən böyük satınalmalardan biri olacaq.

## TAYVAN "MENYUYA DÜŞMƏKDƏN" QORXUR

Tayvan rəsmiləri isə Trampın Çin lideri ilə görüşü zamanı ada ilə bağlı güzəştlərə gedə biləcəyindən narahatdırlar. Rəsmi Taybey belə ssenarinin qarşısını almaq üçün ciddi şəkildə çalışır. "Bloomberg" yazır ki, Tayvan danışıqlar mövzusuna çevrilməkdən ehtiyat edir. "Biz narahatıq və bunun qarşısını almalıyıq", - deyə Tayvanın xarici işlər nazirinin müavini Fransua Vu deyib. Çin lideri görüşdə çox güman ki, Trampa Tayvanın müstəqilliyinə qarşı çıxaraq adanın statusunu yenidən nəzərdən keçirməyə razılaşması üçün təzyiq göstərəcək. Belə mövqenin şifahi təsdiqi və ya ABŞ siyasətinin rəsmi dəyişdirilməsi Si üçün böyük qələbə olardı. ABŞ-nin Taybeyə adanın statusunun yenidən nəzərdən keçirilməyəcəyinə dair hər hansı zəmanət verib-vermədiyi sualına Vu belə cavab verib: "Heç bir şeyə 100% əmin olmaq mümkün deyil".

Ağ Ev isə Trampın Si ilə "müsbət görüş" gözlədiyini və ABŞ administrasiyasının Tayvanla münasibətlərə dair "vahid Çin" siyasəti kimi tanınan mövqeyinin dəyişməz qaldığını bəyan edib.

## "PANDA DİPLOMATİYASI"

Maraqlıdır ki, Trampın Si Cinpinlə uzun müddətdir gözlənilən görüşü ərəfəsində Çin simvolik bir jest edərək iki pandanı Birləşmiş Ştatlara göndərib. Atlanta zooparkı iki yeni sakinin tezliklə gələcəyini rəsmi olaraq elan edib. Ping Ping adlı erkək və Fu Shuang adlı dişi fərd Çin Vəhşi Təbiətin Mühafizəsi Assosiasiyası ilə razılaşma əsasında ABŞ-yə göndəriləcək. Bu yeni razılaşma 2024-cü ildə müddəti başa çatmış əvvəlki razılaşmanı əvəz etmək üçün nəzərdə tutulub. Pandaların dünyanın müxtəlif zooparklarına verilməsi çoxdan Çin üçün "panda diplomatiyası" kimi tanınan güclü bir alətə çevrilib. Bu unikal praktika Pekinə beynəlxalq arenada öz mövqeyini ifadə etməyə imkan verir.

Əksəriyyət də bu fikirdədir ki, Trampın Çinə səfəri reallaşarsa, bu, həm iqtisadi, həm də geosiyasi müstəvidə ciddi dəyişikliklərə səbəb olacaq.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# İNVESTİSİYA PORTFELİ ÜÇÜN ÇEVİK SİYASƏT

Dövlət Neft Fondunun 2026-cı ilin I rübündə qızıl ehtiyatlarını 178,1 tona qədər azaltması iqtisadi dairələrdə maraq doğurub. Ekspertlər prosesi mənfəətin nağdlaşdırılması və uğurlu çevik maliyyə siyasəti kimi dəyərləndirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Azərbaycan Dövlət Neft Fondu (ARDNF) bu ilin ilk rübündə diqqətçəkən bir gedişlə qızıl ehtiyatının bir hissəsini satıb. Rəsmi göstəricilərə əsasən, Fond cari ilin yanvar-mart aylarında 21,9 ton qızıl sataraq ümumi qızıl ehtiyatlarını 178,1 tona qədər azaldıb. Bu qismən azalmaya baxmayaraq, aprelin 1-nə olan məlumata görə, ARDNF-in investisiya portfelində qızılın xüsusi çəkisi hələ də kifayət qədər yüksək – 35,6 faiz (26,1 milyard dollar) olaraq qalır. Bəs, ARDNF-in məhz indi aktiv satışa keçməsinin səbəbi nədir?

### "ÇEVİK QƏRARLARIN VERİLMƏSİ VACİBDİR"

Millət vəkili Vüqar Bayramovun sözlərinə görə, Dövlət Neft Fondu tərəfindən investisiyaların yerləşdirilməsində çevik qərarların verilməsinə üstünlük verilir. Fond qızıl ehtiyatlarını kəskin artırmağa başladığı dövrdə qızılın qiyməti xeyli aşağı idi və praktik olaraq qızıla investisiya etməklə aktivlərin, eləcə də strateji ehtiyatların payını artırmış oldu: "İran müharibəsi başladıqdan sonra qızılın qiymətində azalmalar müşahidə etdik və qızıl bazarında daha yüksək volatillik müşahidə olunmaqdadır. Bu da nəticə etibarilə qızılın qiymətinə və qızıla olan tələbə təsir göstərir, çünki investorlar neft bazarına daha çox sərmayə qoyuluşu həyata keçirməyə başladılar. Ona görə Dövlət Neft Fondu həm bazardakı mövcud vəziyyət, həm də təbii ki, gözləntiləri nəzərə almaqla bu istiqamətdə qərarlarını verir. Atəşkəsdən sonra biz qızıl bazarında müəyyən sabitləşmə və artımları müşahidə etdik, nəticədə bir aylıq yekunda qızılın qiyməti təxminən 4 faizə yaxın yüksəldi. Altı aylıq yekunda qızılın qiymətində 18 faiz artım olub, son bir ildə qızılın qiyməti 40 faiz artıb. Bu baxımdan çevik siyasət investisiya portfelinin strukturunu dəyişməyi tələb edir".

### ALIŞ VƏ SATIŞ ARASINDAKI QİYMƏT FƏRQİ

V.Bayramov Dövlət Neft Fondu tərəfindən qızılın alqı-satqısı ilə bağlı, yeni müəyyən müddətlərdə vəsaitin qızılda saxlaması, müəyyən müddət sonra onun digər aktivlərə və ya nağd vəsaitlərə çevrilməsini doğru hesab edir. Çünki nəticədə Fondun qızılı almağa başladığı tarix ilə qızılı satdığı tarix arasındakı qiymət fərqinə baxsaq, bu, praktik olaraq həmin investisiyadan gəlirliyin təmin edilməsinə imkan yaradıb: "Konservativ qərarlardan daha çevik qərarların verilməsinə keçid reallaşıb. Təbii ki, daha az riskli istiqamətlərə vəsaitlərin yönəldilməsi prinsipi yenə də saxlanılır. Bununla yanaşı qərarların çevik olması çox önəmlidir. Çünki çevik qərarlar nəticədə daha çox gəlirin əldə edilməsinə imkan yaradıb. Dövlət Neft Fondu növbəti dövrlərdə də öz investisiya qərarlarını şaxələndirəcək, fərqli istiqamətlərə vəsaitlərin yönəldilməsini həyata keçirəcək. Qızılla da, yenidən investisiya qoyuluşu da həyata keçirilə bilər, çünki bazardakı gözləntilər və proqnozlara uyğun olaraq qərarların qəbulu həyata keçirilir. Ona görə bu, sadəcə çevik qərarların nəticəsi kimi qiymətləndirilməlidir".



Vüqar Bayramov

Foto: Firudin Səlimov/Global Photostock

## "Əsas hədəf maksimum gəlirliliyə nail olmaqdır"

İqtisadçı Elçin Əkbərov isə bildirdi ki, Prezidentin müvafiq Fərmanına əsasən Fondun qızıl altportfelinin payı investisiya portfelinin məcmu dəyərinin 35 faizinə qədər nəzərdə tutulub: "Bu zaman yuxarı uzaqlaşma intervalı maksimum 4 faiz olaraq müəyyən edilib. Fondun bu il üçün investisiya siyasətinin əsas hədəfi isə əsas kapitalın itirilməsi riskini minimuma endirməklə yanaşı, maksimum gəlirliliyə nail olmaqdan ibarətdir. Məlum olduğu kimi, ARDNF-in qızıl ehtiyatları uzun illər ərzində yüksələn xətt üzrə artaraq 2019-cu ildəki 101,2 tondan 2025-ci ildə 200 tona çatmış və beləliklə, ehtiyatlar çəki ifadəsində təqribən iki dəfə artmışdır. Xüsusilə də bu alışların əsasən qızılın qiymətinin əlverişli və ucuz olduğu dövrlərə təsadüf etdiyini vurğulamaq lazımdır".

## "Bu addım qızıldan tamamilə imtina demək deyil"

E.Əkbərovun sözlərinə görə, uzunmüddətli yığım prosesindən sonra 2026-cı ildə ARDNF çoxillik alış siyasətini dayandıraraq taktiki satışa başladı. Lakin bu addım heç də bazarda qızıldan tamamilə imtina və ya qızıldan çıxış kimi başa düşülməməlidir. Əksinə, investisiya portfelinin yenidən və sağlam şəkildə balanslaşdırılmasıdır: "Bunun ən başlıca səbəblərindən biri məhz investisiya gəlirinin realizasiyası, yəni mənfəətin nağdlaşdırılmasıdır. 2025-ci il və 2026-cı ilin əvvəlində qızıl qiymətlərinin kəskin bahalaşması, eləcə də tarixi rekordların yenilənməsi uzun müddət ərzində ucuz qiymətə yığılmış bu aktivdən maksimum mənfəət əldə etmək üçün ideal və rasional fürsət yaratdı. Digər tərəfdən, 2025-ci ilin sonunda qızılın payının 38,2 faizə çatması Fondun təsdiqlənmiş hədəf göstəricisini artıq üstələyirdi. Buna görə də satış prosesi portfeli tələb olunan normativ çərçivəyə qaytarmağa xidmət edir. Eyni zamanda, Yaxın Şərqdəki gərginliklər və inflyasiya gözləntilərinin istiqraz bazarına mənfi təsiri fonunda Fond öz ümumi ehtiyatlarını sığortalamaq və yaranan likvidlik ehtiyacını qarşılamaq məqsədilə də dövri satışlara getmiş ola bilər. ARDNF bu halda qlobal institutların hər troy unsiyası üçün 5000 dollarlıq zirvə proqnozunu da gözləyərək spekulyativ gedişlər deyil, planlı və ağıllı risk idarəetməsi həyata keçirib".

### STANDART VƏ ZƏRURİ PROSEDUR

İqtisadçının fikrincə, ümumilikdə atılan bu addım olduqca uğurlu və yetkin investisiya strategiyasının tərkib hissəsidir: "Beynəlxalq suveren fondların qlobal təcrübəsində də aktivlərin vaxtaşırı yenidən balanslaşdırılması standart və zəruri prosedurdur. Məsələ burasındadır ki, qızılın portfeldəki payının normadan artıq yüksək olması Fondun valyuta və faiz dərəcələrinin qlobal dəyişməsi qarşısında həssaslığını kəskin artırır. Payın proporsional olaraq azaldılması isə qızıl qiymətlərindəki gələcək mümkün ucuzlaşmanın və korreksiyaların Fondun ümumi aktivlərinə vura biləcəyi zərbəni əvvəlcədən neytrallaşdırır".

Müsahibimizin sözlərinə görə, qızıl satışı Azərbaycanın maliyyə sabitliyinə hər hansı bir mənfi təsir göstərmir, əksinə, Fondun büdcə qarşısındakı öhdəliklərini vaxtında və etibarlı yerinə yetirməsi üçün əlavə manevr və likvidlik imkanları yaradır.



Elçin Əkbərov

## “KANADADA BİR YERDƏ FƏALİYYƏT GÖSTƏRMƏK ÇOXLU XƏRC İSTƏYİR, ONA GÖRƏ STUDİYAMI SƏYYAR ETDİM”

SÖHBƏTLƏŞDİ

Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

# “İSTƏYİRƏM SƏHNƏDƏ NƏFƏSİM KƏSİLSİN...”



**Əslən Cənubi Azərbaycandan olan kanadalı xoreoqraf, ifaçı və pedaqoq Saşar Zərif:** “Mən tamaşaçılarıma həmişə hörmət edirəm, amma onları tamaşaçı kimi yox, evimə gələn qonaq kimi görürəm. O hörmətə görə, mən onlar üçün obraz yaratmaq, rol oynamaq istəmirəm, özüm olmaq istəyirəm”.

Əslən Cənubi Azərbaycandan olan kanadalı xoreoqraf, ifaçı və pedaqoq Saşar Zərif Bakıdadır. O, 35 ildir ki, rəqsdə əsrlərdən gələn ənənə ilə müasirlik arasında körpü qurmağa çalışır. Tanınmış rəqqasın görkəmli xanəndə Alim Qasımovla Torontodakı İncəsənət Mərkəzindəki uğurlu çıxışından sonra Bakıda Milli Konservatoriyada keçirilən konsertdə muğamın sədaları altında rəqs performansları böyük maraqla qarşılanıb.

### “BURADA MƏNİM DƏ ƏNƏNƏLƏRİM QALIB”

● **Saşar bəy, Bakıya xoş gəlmişsiniz! Yəqin ki, Sizi Azərbaycana yenidən muğamla rəqsin harmoniyası gətirib. Gəlişinizdə ruhi və mənəvi bağlılığınız da böyük rol oynayır?**

● Mənim köklərim buralara bağlıdır. Nənəm içərişəhərli olub. Buradan Aşqabada, oradan da İrana köçüblər. Anamın babası Gürcüstandan gəlmədir, ana tərəfim də həm Həmədan, həm də Zəncandandır. Təbii ki, bu qarışıqlıq mənim həyatımın da köçəri olması üçün səbəb olub. Ona səbəb olub ki, mən vətəni bir coğrafiyada aramayım, Vətəni ürəkdə olan hissdə arayım. Ona görə mən ürəkdə azərbaycanlı hissi doğulmuş halda başqa yerlərə səfər elədim. Necə ki, dədə-nənələrim də belə səfər edib, öz duyğularını, nağıl və mahnılarnı, hərəkətlərini, ah-uflarnı yerdən-yerə, ölkədən-ölkəyə daşıyıblar. Onlar hara çatıblarsa, oranı özlərinə yurd ediblər. Mənə görə də bu yaxşı bir nümunə idi. Mən cavan olanda həmişə düşünürdüm ki, özümü tapım, mənə kök lazımdır, kimliyimi bilim. Sonradan dərk elədim ki, axar suya oxşamaq yaxşıdır. Bu, bizim mədəniyyətimizdə də var. Biz noməd türklərindən gəlirik və hər yeri özümüzə yurd edirik. Şadam ki, indi məmləkətimin ürəyimin üstündə yeri var. Əlbəttə, bura gələndə adamı torpaq çəkir. Bakıya gələn kimi birinci Xəzərin sahilinə gedirəm. Sulara baxa-baxa deyirəm: burada mənim də ənənələrim qalıb. Məncə, ürək yurdda olmasa torpaqda qala bilməz. 1993-cü ildə İranla Azərbaycan arasında yollar açılandan sonra valideynlərim İrandan Bakıya köçdülər. Onlar Kanadaya köçənə kimi iki il burada yaşadılar. Nənəmə görə Bakı bizə çox doğma idi. Valideynlərim Bakıya gedəndə mən də Kanadadan Bakıya gəldim. Burada rəqs ustadı Əlikram Aslanovdan rəqsin, bəstəkar Vasif Adıgözəlovdan vokalın sirlərini öyrəndim. Torontoya qayıdanda Azərbaycan cəmiyyətində uşaqlar üçün “Coşqun” rəqs qrupunu bərpa etdim. Tədbirlərdə çıxış edirdik, Avropaya tez-tez səfərlərimiz olurdu.



> *Mən cavan olanda həmişə düşünürdüm ki, özümü tapım, mənə kök lazımdır, kimliyimi bilim. Sonradan dərk elədim ki, axar suya oxşamaq yaxşıdır. Bu, bizim mədəniyyətimizdə də var.*

### “ƏRUZ ANLADIR, MUSİQİ HİSS ETDİRİR, RƏQS AKTUALLAŞDIRIR”

● **Keçən il oktyabr ayında Kanadanın Toronto şəhərində sizin Alim Qasımovla birgə “Məhəbbət” layihənizin iştirakçısı oldum. Segahla rəqsin harmoniyasını izlədim. Belə görünür muğamla necə rəqs etməyin sirrini özünüz üçün çoxdan çözmüsünüz. Rəqslərinizin fəlsəfəsini necə izah edərsiniz? İnsanlara nə demək istəyirsiniz?**

● Məncə, ən mühüm şey həyatda niyə yaşamağımızın mənasını bilməkdir. Biz nə iş görürüksə - gərək yaşantının mənasını tapaq. Bu həyatda yaşamaq üçün bir hədəf tapmalıyıq. Mənə görə rəqs, musiqi, ədəbiyyat insanın həyatının mənasını tapmaq üçündür. Necə ki, Mirzə Ələkbər Sabir və başqa şairlər bunu təbliğ ediblər. Onların yaradıcılığı bizə yanlışlıqlarımızı görməyə, həyatın mənasını daha yaxşı anlamağa kömək edir. Muğam sənətində də belədir: əsas muğamın texnikasıdır, gözəl səsin olması mühüm deyil. Əgər bu dünyaya bir şey verə bilməyəcəksənsə, nəyə dəyər? Bizim dahilər səslərini qoyub gediblər, biz onları bu gün də dinləyirik. Çoxu da oxuyub gediblər, kim olduqlarını da bilmirik. Ona görə muğamın gücü həm beyni işlətməsində, həm şeirin fəlsəfəsini bilməsindədir. Şeirin fəlsəfəsi də insanın axtarışının nəticəsidir. Musiqi o şeirləri emosional edir. İnsan uc hissədən ibarətdir: beyin, emosiyalar və bədən. Mövlana dərvişləri bu üç şeydən səmada istifadə edirlər. Muğamla rəqs edəndə hər üç ölçüdən təcrübə edirəm: əruz anladır, musiqi hiss etdirir, rəqs aktuallaşdırır.

### “BU İŞİN “DƏMLƏNMƏSİNƏ” VAXT LAZIM İDİ”

● **Bu layihə üçün niyə məhz Alim Qasımovu seçdiniz? Düşündünüz ki, duyğu və düşüncələrinizi onun oxuduğu muğamatla daha yaxşı ifadə edə bilərsiniz?**

● Torontoda Alim Qasımovla “Məhəbbət” layihəsini təqdim edəndən sonra tamaşaçılar tərəfindən böyük sevgi və anlamla qarşılandığını gördük. Bizim aramızda məhəbbət yarandı. Mən ilk dəfə 2004-cü ildə bunu Alim Qasımova təklif edəndə “təsnif yerlərini oynayarsan“ dedi. Amma mən həm də muğamı oynamaq istədiyimi dedim. Musiqi zamanla işləyir, rəqs zamanı məkanlaşdırır. Biz bu layihəyə o vaxt başladıq. Amma arada fasilə oldu. Bu işin “dəmlənməsinə” vaxt lazım idi...

● **22 il vaxt keçdi...**

● Bəli, 22 il... Deyə bilərəm ki indi ilə müqayisədə o vaxtlar daha çox yorulurdum. Cavan olanda çalışırsan, axtarırsan, çox enerji sərf edirsən. Yaşlaşanda isə enerjidən çox, özün olmağı düşünürsən. İndi çağırışlar fərqlidir, dövr dəyişib. Mən tamaşaçılarıma həmişə hörmət edirəm, amma onları tamaşaçı kimi yox, evimə gələn qonaq kimi görürəm. O hörmətə görə, mən onlar üçün obraz yaratmaq, rol oynamaq istəmirəm, özüm olmaq istəyirəm. Əvvəllər mənə deyirdilər ki, səhnədən sənin nəfəsinin səsi gəlir, niyə elə oynayırsan, elə bil nəfəsin kəsiləcək. Amma mən istəyirəm, səhnədə nəfəsim kəsilsin, tamaşaçı mənim çabaladığımı görsün. Mən də insanam. İstəyirəm, zalda oturan insan özünü məndə görsün. Mənim üçün sonda baş əymək ən çətin məqamdır.

● **Maraqlıdır...**

● Çünki istəyirəm ki, rəqsim bitəndən sonra səhnədən gedim, itim... Səhnədə çalışırsan ki, özün olasan. Adamın qüruru, qorxusu onu rol oynamağa çağırır. Mən oynayanda səhnədə özümə daha yaxınam. Tamaşaçının alqışlarını eşidəndə yenə o maskanın içinə girməliyəm. Mən onları tamaşaçı kimi yox, şahid kimi görmək istəyirəm. Tamaşadan sonra onlara özlərinə gəlməyə vaxt verirəm. Pərdənin çəkilməsini, hamının durub getməsini istəmirəm. Onlar da “sağ ol, o vaxtı bizə verdin, biz səhnədə baş verənləri mənimsəyə bildik”, - deyə təşəkkür edirlər. Mən emosiyalardan istifadə edib tamaşaçını həyəcanlandırmaq istəmirəm. Məni nə coşdurursa, ona uyğun hərəkət edib zala təsir edirəm. Qoy təbii həyəcanlansınlar. Ona görə şahidlərimə çox borcluyam. Onlar müəllim kimidirlər: otururlar, sən özünü sınayırsan və səhvlərini düzəldirsən. Mən buna səhnədə öyrəşdim. Öz zəif tərəflərini görəndən sonra əsəbləşmirsən. Mənə görə rəqs həyatın mühüm bir parçasıdır və səhnəyə deyil, həyata aiddir.

● **Siz rəqs edəndə mən hərdən gözümü qapadırdım, yıxılacağınızdan qorxurdum. Yəqin hər konsertdən sonra sizə uzun zaman dincəlmək lazım gəlir...**

● Dincəlməyə imkan olsaydı, yaxşı olardı... Amma həyatın tələbi başqadır. Gündəlik işlər, görüşlər var. Yaxınlarda bir dostumla danışanda dedi ki, sənin indi rəqs etmək yox, rəqs qurmaq vaxtındır. Mənsə dedim ki, yox, mənim rəqs edən vaxtım indidir. 40 yaşım olanda həyatdan o qədər ləzzət almırdım. Cavan olanda həyatı mənimsəyirsən. Onun da öz gözəlliyi var. Amma 50 yaşımda daha çox zövq alıram. Bu yaşı keçəndən sonra o yaşantılarını insanlarla bölüşürsən.

### AXTARIŞ BİTİRSƏ...

● **Siz York Universitetinin professoru olmusunuz. Rəqs sizi universitetdən tamam ayırdı?**

● Mən Kanadada məktəbi bitirib Vaterlo Universitetində tibb mühəndisliyi ixtisası üzrə təhsil aldım. Amma bu peşə ilə məşğul olmadım. Rəqsi öyrənəndən sonra özümlə “bu gün yolumu dəyişirəm, bu yolu özüm seçmişəm və məsuliyyəti də mənim boynumadır” deyə bir müqavilə bağladım. Dərs verməyi çox sevirəm. York Universitetindəki siniflərim ən populyar siniflər idi. Başqa siniflərin limiti 34 nəfər idisə, mənim dərslərimdə 60-dan çox tələbə olurdu. Mən universitetdə təkcə rəqsi öyrətmirdim. Rəqsin rabitəsini onların gündəlik həyatlarına bağlayırdım. Onların duyğularını, yaddaşlarını rəqsin içinə gətirirdim. Ona görə dərslərimə çox adam gəlirdi. Ancaq hazırda Kanada universitetlərində sənətlə bağlı fakültələrdən büdcəni kəsib texnoloji sahəyə yönəldirlər. Yəni universitetlərin mahiyyəti dəyişdi. Digər tərəfdən, mən dünyadakı tədqiqatlarımı davam etdirmək istəyirdim. Ona görə universitetdən ayrılıb Asiya Tədqiqat Mərkəzində işləməyə başladım. Əlbəttə, mən demirəm ki, sənətkar dahidir, bütün həqiqətləri bilir, amma sənətkar ömür boyu axtarmalıdır. Əgər axtarış bitirsə, yaşamağın mənası da qalmır. Mənə görə sənəti pul xətrinə davam etdirmək yanlış fikirdir. Yaşamaq lazımdır, amma bizim işimiz əyləndirmək deyil, düşündürməkdir.

● **Siz müxtəlif ölkələrdə tədqiqatlar aparırsınız, unudulmuş rəqsləri axtarırsınız və s. Araşdırmalarınızın nəticələrindən razısınızmı?**

● Mən türk xalqları üzərində işləmişəm, bilgini sufi, şaman rituallarında axtarmışam. 38 ildir ki, bu işi davam etdirirəm. Əslində, bizim dahilər bunları yazıb-pozublar. Ancaq biz onlara klassik əsər kimi yanaşmışıq, canlı əsər kimi baxmamışıq. Yəni biz yaddaşı arxiv kimi qoruyuruq. Bizə deyiblər ki, onun yeri muzeydir. Amma “Xəmsə”nin yeri muzey deyil, onun yeri gündəlik həyatdadır. Mən keçmişi hazırda yaşayaraq başa düşürəm. Özümə bir metodologiya yaratdım və adını “Hərəkətli yaddaş” qoydum. Bu da ondan irəli gəlir ki, mən gözümü açandan nənəmi görmüşəm. O, Tehranda balaca otağında xalçanın üstündə otururdu. “Atamın evi Bakıdadır, həyətində hovuz, söyüd ağacları, qızılgüllər vardı. Bacım Şəhrəbanı gələrdi, Ramazan günlərində yemək bişirərdik. İftardan sonra - gecə saat 4-də eyvanda çalıb oynayardıq. Bacımın qulağında iki ağır sırğa vardı. Deyərdi, “bu sırğaları taxırıq ki, bizi yerdə saxlasın”. Nənəm həm oxuyur, həm çalır, həm nağıl danışırdı. O, həyatı mənə belə anladırdı. Mən beş yaşından onun yanında oturmuşam. Ona görə dünyanı nağılla, hisslə, ahla, səslə, nəfəslə, sözlərlə dərk etmişəm. Onları axtarış etmək üçün o vəsiləni muğamda tapdım. Muğamla rəqs etmək mənə təkan verdi. Çox vaxt özüm oxuyub oynayıram. Səs bədənin içindən gələndə fərqli duyğudur. Mən onun adını “səsli bədən” qoymuşam. Azərbaycan muğamının əsli-kökü olub. İran, Ərəbistan, Mərakeş, Banqladeş, Özbəkistan, Qırğızıstanda da bunların hamısını sınaqdan keçirmişəm.





Fotolar: Rüfət Mikayılov- Global Photostock

### “HARA GEDİRƏMSƏ, ORADA YURD SALIRAM”

● **Amma ən çox özünüzü Azərbaycan muğamı ilə ifadə edə bilmisiniz...**

● Azərbaycan muğamının özəlliyi aşıq nəfəsinin içində olmasıdır. 32 ildir bu sahədə peşəkar olaraq işləyirəm. Bu illər ərzində 40-dan çox məmləkətdə işləmişəm, dərs vermişəm, səhnədə olmuşam, yaşamışam. Yəni bugünkü təcrübələrimi kitabxanada qazanmamışam. Mənim üçün bilgi həyatdan gəlməlidir.

● **Sizin yaratdığınız “Saşar Zərif” rəqs teatrı hazırda necə fəaliyyət göstərir?**

● 15 ildir ki, köçəri fəaliyyət göstərirəm. Həm studiyamı köçəri etdim, həm özüm səyyar oldum. Hara gedirəmsə, orada yurd salıram. Kanadada bir yerdə fəaliyyət göstərmək çoxlu xərc istəyir. Ona görə studiyamı səyyar etdim. Amma Kanadada yaşadığım üçün orada hər il proqramlarım olur. Bakıdakı konsertimdən sonra Özbəkistana, sonra Banqladeşə, Türkiyəyə və İspaniyaya gedəcəyəm.

● **Azərbaycanla bağlı daha hansı planlarınız var?**

● Burada layihələr hazırlamağı düşünürəm. Azərbaycanın kiçik kənd və şəhərlərini gəzmək, oralarda bir az qalmaq istəyirəm. Nənələri çox sevirəm. Rəhmətlik nənəm beş yaşıma qədər mənə o qədər sərvət verdi ki, indi də tükənmir. Ona görə də ağsaqqal və ağbirçəkləri çox sevirəm. Həyatı bir yerdə saxlayan da elə onlardır.

# İKİ ÖLKƏ ARASINDA MEDİA KÖRPÜSÜ

“Global Media Group”a daxil olan “Baku TV” telekanalı və “Report” İnformasiya Agentliyi ilə Çinin nüfuzlu CCTV+ Videoxəbər Agentliyi arasında əməkdaşlıq memorandumu imzalanıb.




Pekin şəhərində aprelin 27-də “Global Media Group”a daxil olan “Baku TV” telekanalı və “Report” İnformasiya Agentliyi ilə Çinin nüfuzlu CCTV+ Videoxəbər Agentliyi arasında əməkdaşlıq memorandumu imzalanıb. Sənədi CCTV+ agentliyinin baş icraçı direktoru xanım Li Xia, “Report” İnformasiya Agentliyinin direktoru Fuad Hüseynəliyev və “Baku TV”nin direktoru Ramin Cəfərov imzalayıblar.

### OPERATİV DƏSTƏYİ TƏMİN EDƏCƏK

Mərasimdə çıxış edən CCTV+ Videoxəbər Agentliyinin sədri və baş redaktoru Qao Vey bildirib ki, bu tərəfdaşlıq iki ölkə arasında media körpüsü rolunu oynayacaq: “Müasir media qurumları olan “Baku TV” və “Report” ilə informasiya və təcrübə mübadiləsi hər iki tərəfin xəbər gündəmini zənginləşdirəcək, mühüm tədbirlərin işıqlandırılmasında operativ dəstək təmin edəcək”.

### ASİYA REGİONUNDA DAHA GENİŞ YAYILMA

Tədbirdə çıxış edən “Baku TV”nin direktoru Ramin Cəfərov “Global Media Group”un İdarə Heyətinin sədri Elnur Abdullayevin adından xüsusi olaraq vurğulayıb ki, “Global Media Group”a daxil olan media qurumları ilə Çinin aparıcı media agentliyi arasında imzalanan memorandumun əsas məqsədi tərəfdaşlıq münasibətlərinin qurulması, tərəflər arasında uzunmüddətli və səmərəli əməkdaşlığın inkişaf etdirilməsi, həmçinin, operativ məlumat mübadiləsi və qarşılıqlı dəstəyin təmin olunmasıdır.

Ramin Cəfərov memorandumun perspektivlərindən bəhs edərkən qeyd edib ki, əməkdaşlıq çərçivəsində müxtəlif sahələr üzrə videoməzmun mübadiləsinin aparılması televiziya məhsullarımızın Asiya regionunda daha geniş yayılmasına və beynəlxalq mövqeyimizin möhkəmlənməsinə xidmət edəcək.

### XARİCİ TƏRƏFDAŞLIQDA NÖVBƏTİ UĞUR

“Report” İnformasiya Agentliyinin direktoru Fuad Hüseynəliyev öz növbəsində qlobal informasiya mübadiləsinin önəmini vurğulayıb: “Çinin aparıcı media qurumu ilə operativ məlumat, foto və videomaterialların paylaşılması oxucularımıza hadisələri daha dolğun mənbədən izləmək imkanı verəcək. Bu addım xarici tərəfdaşlıq əlaqələrimizin genişləndirilməsi istiqamətində növbəti uğurdur”.

## Digər ölkələrlə də analoji əməkdaşlıq sənədləri imzalanıb



Qeyd edək ki, Çin Mərkəzi Televiziyasının, CCTV-nin tərkibinə daxil olan CCTV+ qlobal media təşkilatlarına xəbər və videoməzmun təqdim edən aparıcı Çin videoxəbər agentliyidir. Qurumun müştəriləri sırasında 130-dan çox ölkə və regionda fəaliyyət göstərən 1800-dən artıq televiziya kanalı və 1000-dən çox rəqəmsal media platforması var.

Bu memorandum “Global Media Group”un beynəlxalq əməkdaşlığının genişləndirilməsi strategiyasının davamıdır. Qrupun media resursları tərəfindən 2025-ci ildə Özbəkistan və Qazaxıstanın media qurumları ilə də analoji əməkdaşlıq sənədləri imzalanıb.

## “Global Media Group” haqqında



“Global Media Group” 2017-ci ildə təsis edilən aparıcı media şirkətlər qrupudur. Qrupa Azərbaycanda və ölkə xaricində fəaliyyət göstərən televiziya kanalları, informasiya agentlikləri, xəbər portalları, qəzetlər və digər media resursları daxildir.

“Global Media Group” haqqında daha ətraflı məlumat əldə etmək üçün www.gmg.az veb-saytına və şirkətin müxtəlif sosial şəbəkələrdə olan səhifələrinə (“Facebook”, “Instagram”, “LinkedIn”, “YouTube”) müraciət edə bilərsiniz.




# “SOCAR bu təşəbbüsə vacib layihə kimi yanaşacaq”

İspaniyanın nüfuzlu IE Universiteti ilə strateji tərəfdaşlıq çərçivəsində Bakıda Liderlik və İnnovasiya üzrə IE Mərkəzinin yaradılması üzrə Anlaşma Memorandumu imzalanıb. “Report” xəbər verir ki, sənədə elm və təhsil naziri Emin Əmrullayev, iqtisadiyyat nazirinin I müavini Elnur Əliyev, Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf, IE Universitetinin prezidenti Santiago Iniguez de Onzono və “PAŞA Holdinq” MMC-nin baş icraçı direktoru Cəlal Qasımov imza atıblar.

Tədbirdə çıxış edən SOCAR prezidenti Rövşən Nəcəf bildirib ki, Liderlik və İnnovasiya üzrə IE Mərkəzi kimi layihələrin bəhrəsini və nəticələrini gələcək onilliklərdə görəcəyik. Onun sözlərinə görə, İspaniyanın IE Universiteti innovasiya, sahibkarlıq və bilik sahəsində qlobal universitetlərdən biridir: “Bu universitetin onilliklər ərzində əldə etdiyi uğurlar nümunədir. O, Azərbaycana dünya səviyyəli akademiya, tədris proqramı və dərslər gətirəcək. Azərbaycan gəncləri bu istiqamətdə bilikləri ölkəmizdə əldə edə biləcək. Bunun digər akademik dairələrə də müsbət təsiri olacaq. Ümid edirik ki, IE daxil olmaqla, digər universitetlər, akademiyalarla bu əməkdaşlığı gələcəkdə daha da genişləndirəcəyik”.

R.Nəcəf qeyd edib ki, SOCAR bu təşəbbüsə vacib, irimiqyaslı və əhəmiyyətli layihə kimi yanaşacaq: “Bu, bizim üçün sadəcə illik hesabatda bir sətir və ya divardakı bir loqo olmayacaq. Bu, bizim fədakarlığımız və dəstəyimiz olacaq. Bu təşəbbüsə rüblük və ya illik deyil, onilliklər prizmasından baxacağıq. Çünki bu təşəbbüsün bəhrə və nəticələrini gələcək onilliklərdə görəcəyik”.

Kaspi
Üç əsrin qəzeti

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qazet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 559
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# SAXTA DƏRMANLAR NECƏ AŞKARLANACAQ?

Saxta dərmanların aşkarlanması üçün rəqəmsal nəzarət sistemi hazırlanır. Bu sistem işə düşdükdən sonra dərman vasitələrini istehsal prosesindən istifadə mərhələsinə qədər izləmək mümkün olacaq.





AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda saxta dərmanların dövriyyəsi ilə bağlı narahatlıqlar uzun illərdir gündəmdədir. Səhiyyə Nazirliyi isə, problemin qarşısını almaq üçün yeni rəqəmsal mexanizm – "Track & Trace" sistemini gündəmə gətirib. Nazirliyin Analitik Ekspertiza Mərkəzinin Dərman vasitələrinin Təqib və izləmə şöbəsinin müdiri Səid Fərzullayev bildirib ki, saxta dərmanların qarşısının alınmasında müasir dövrdə ən effektiv vasitələrdən biri rəqəmsal izləmə - yəni "Track & Trace" sistemidir. Bu sistem vasitəsilə hər bir dərman vasitəsi qutusuna unikal seriya nömrəsi verilir. Şöbə müdiri bildirib ki, dərman vasitəsi aptekdə satıldıqda və ya tibb müəssisəsində istifadə edildikdə həmin kod sistemdə deaktiv olunur: "Əgər eyni kod ikinci dəfə istifadə edilərsə, sistem dərhal xəbərdarlıq verir. Bu mexanizm saxta və ya təkrar dövriyyəyə buraxılmış dərman vasitələrinin operativ şəkildə aşkarlanmasına imkan yaradır. Nəticədə sistem saxta dərman vasitələrinə qarşı güclü rəqəmsal sipər rolunu oynayır".

### "BU HALDA MƏHSUL RİSKLİ HESAB EDİLİR"

Səhiyyə eksperti İlqar Hüseynli bildirir ki, "Track & Trace" sistemi ingilis dilindən tərcümədə "izlə və nəzarət et" mənasını verir və əsas məqsədi dərman dövriyyəsində şəffaflığı təmin etməkdir. Onun sözlərinə görə, Azərbaycanda əczaçılıq sahəsində mövcud əsas problemlərdən biri idxaldan asılılıqdır və bu da nəzarət mexanizmlərinin gücləndirilməsini zəruri edir: "Bu sistem çərçivəsində hər bir dərman qutusuna unikal identifikasiya kodu verilir. Bu kod adətən "Data Matrix" formatında qablaşdırmanın üzərinə yerləşdirilir və dərmanın istehsal mərhələsindən son istifadəyə qədər izlənməsinə imkan yaradır. Bu kod vasitəsilə istehsalçının müəyyən edilməsi, idxal tarixinin izlənməsi, paylama zəncirinin nəzarətdə saxlanılması, aptek satışlarının qeydə alınması, mümkün təkrar dövriyyə, saxta məhsul risklərinin aşkarlanması mümkün olur. Sistemdə qeydiyyatda olmayan və ya tanınmayan kod aşkar edildikdə həmin məhsul riskli hesab olunur və onun dövriyyəyə buraxılmasının qarşısı alınır".

### SİSTEMİN EFFEKTİV İŞLƏMƏSİ ÜÇÜN...

Ekspert bildirir ki, ölkədə dərman istehsalı məhdud olduğu üçün yerli zavodlar bu prosesi daha sadə şəkildə idarə edə bilsələr də, əsas yük idxal zəncirinin üzərindədir: "Track & Trace" kimi izləmə sisteminin effektiv işləməsi üçün ilk növbədə idxalçı şirkətlərlə istehsalçı zavodlar arasında razılaşmalar olmalıdır. Bu razılaşmalar çərçivəsində hər bir dərman qutusunun üzərinə müvafiq identifikasiya kodu yerləşdirilməlidir. Azərbaycanda da bu sistemin texniki baxımdan tətbiqi mümkündür, lakin bunun üçün bir sıra struktur və infrastruktur məsələləri həll olunmalıdır. İlk növbədə güclü nəzarət mexanizmi formalaşdırılmalı, bütün dərman zənciri - təchizat, topdansatış və pərakəndə satış mərhələləri - bu sistemə inteqrasiya olunmalıdır".


İlqar Hüseynli

### SAXTA DƏRMANLAR ÖLKƏYƏ NECƏ GƏTİRİLİR?

Mütəxəssis bildirir ki, ümumilikdə "saxta dərman" anlayışı rəsmi statistikada geniş şəkildə təsdiqlənmiş göstərici deyil. Onun sözlərinə görə, daha çox problem qeyri-rəsmi idxal və müxtəlif qaçaqmalçılıq yolları ilə ölkəyə daxil olan dərman partiyaları ilə bağlıdır: "Bu məhsullar əslində istehsal olunduqları ölkələrdə sertifikatlı zavodlar tərəfindən hazırlanır, lakin bəzən vergi və gömrük nəzarətindən gizlədilərək ölkəyə gətirilir. Eyni zamanda internet üzərindən həyata keçirilən qeyri-rəsmi satışlar bu nəzarətsizliyi daha da artırır. Bu halda həmin dərmanların orijinallığını və təhlükəsizliyini tam şəkildə yoxlamaq mümkün olmur. Bununla belə, əvvəlki illərlə müqayisədə ölkəyə saxta və ya şübhəli dərmanların daxil olması ilə bağlı göstəricilərdə azalma müşahidə edilir. Dərman istehsalçıları və tədarük zənciri iştirakçıları artıq öz reputasiyalarını qorumaq məqsədilə qaçaqmalçılıq, qeyri-rəsmi satış kanallarına imkan verməməyə daha çox diqqət yetirirlər".



## Sistemin uğur qazanması üçün vacib şərt

İ. Hüseynli bildirir ki, sistemin uğur qazanması üçün bir neçə vacib şərt mövcuddur: "İlk növbədə güclü hüquqi baza yaradılmalı və effektiv nəzarət mexanizmi formalaşdırılmalıdır. Proses boyunca mütəmadi monitorinq aparılması, ictimai maarifləndirmənin gücləndirilməsi, şəffaflığın təmin edilməsi və pozuntulara qarşı real çəkindirici sanksiyaların tətbiqi vacibdir. Vətəndaşlar üçün real dəyişiklik o zaman hiss olunacaq ki, bütün bu mexanizmlər vahid və işlək sistem kimi fəaliyyət göstərsin. Bu halda insanlar mobil tətbiqlər vasitəsilə və ya ştrix-kodların skan edilməsi ilə dərmanın izlənilə bilən, nəzarət olunan və ya qeyri-rəsmi dövriyyəyə aid olub-olmadığını asanlıqla yoxlaya biləcəklər. Əks halda, sistem formal xarakter daşıya və praktik nəticə verməyə bilər".

## Bəs dünya təcrübəsi bizə nə deyir?

Bu model yeni deyil. Bir çox ölkədə artıq uzun illərdir tətbiq olunur. Məsələn, Avropa İttifaqında "Euro-pean Medicines Agency" nəzarəti altında "Falsified Medicines Directive" çərçivəsində dərmanların izlənməsi və təhlükəsizliyi təmin edilir. ABŞ-də isə "U.S. Food and Drug Administration" tərəfindən "Drug Supply Chain Security Act" əsasında oxşar izləmə mexanizmi tətbiq olunur. Regionda isə Türkiyə uzun illərdir dərman izləmə sistemi istifadə edən ölkələrdən biridir və bu sahədə tez-tez nümunə kimi göstərilir.

# SÖKÜLƏCƏK BİNALAR GƏLİR MƏNBƏYİNƏ ÇEVRİLİR

Paytaxtın əmlak bazarında söküntü planları ilə əlaqədar "xruşşovka" ajiotajı yaşanır. Daha böyük kompensasiya əldə etmək məqsədilə həyata keçirilən kütləvi alışlar istismar vaxtı keçmiş binalarda mənzillərin qiymətini bahalaşdırıb.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bakının siması yeniləndikcə, sovet dövründən miras qalan və istismar müddətini başa vurmuş "xruşşovka"ların taleyi daşınmaz əmlak bazarının ən çox müzakirə olunan mövzusuna çevrilir. Şəhərin yeni Baş Planına əsasən, qarşıdakı illərdə bu qəzalı binaların mərhələli şəkildə sökülməsi nəzərdə tutulur. Lakin bəzi işbazlar və investorlar gələcək söküntü zamanı tikinti şirkətlərindən daha böyük kompensasiya, əlavə yaşayış sahəsi, təmir və kirayə pulu qoparmaq ümidi ilə kütləvi şəkildə bu cür köhnə mənzilləri almağa başlayıblar. Nəticədə, "xruşşovka"ların qiymətində kəskin artım müşahidə edildiyi bildirilir.

### "İŞ ADAMLARI QAZANC ƏLDƏ ETMƏYƏ ÇALIŞIRLAR"

Əmlak bazarı üzrə ekspert Anar Nəsirovun sözlərinə görə, Bakı şəhərinin Baş Planına əsasən, bəzi ərazilərdə istismar müddəti başa çatmış və qəzalı vəziyyətdə olan binaların, eləcə də kvartalların söküntüsü həyata keçirilir. Söküntü zamanı sakinlər kirayə pulu ilə təmin edilir və onların yaşadıqları evlər tikinti şirkəti ilə qarşılıqlı razılaşma əsasında sökülür: "Evləri söküntüyə düşən vətəndaşlar bu prosesdən xeyli əlavə qazanc əldə edirlər. Birincisi, köhnə binanın əvəzinə onlara 24 saat daimi suyu, qazı, işığı və müasir liftləri olan, yeni standartlara cavab verən binalarda mənzil verilir. İkincisi, məsələn, 50 kvadratmetr sahə sökülürsə, şirkətlə razılaşma əsasında mülkiyyətçiyə əlavə kvadratmetrlər təklif olunur. Üçüncüsü, vətəndaş ya təmir pulunu alıb mənzili özü təmir edir, ya da şirkətdən tam təmirli ev alır".

A.Nəsirovun fikrincə, buna görə alıcıların "xruşşovka"lara marağı artıb. Hazırda söküntüyə gedən əksər binaların sakinləri tikinti şirkətlərindən əlavə kvadratmetr əldə etməyə çalışırlar: "Mərkəzə nisbətən yaxın ərazidə yerləşən 3 otaqlı "Xruşşovka" layihəli ev bu gün 190-200 min manata satılırsa, bina söküntüyə düşdüyü halda əvəzində verilən yeni mənzilin dəyəri təqribən 300 min manata yaxın olur. Bu gün 1-3 mərtəbəli həyət evləri azaldığından, tikinti şirkətləri yeni bina inşa etmək üçün artıq 4-5 mərtəbəli binaları da sökürlər. Bunu bilən bəziləri həmin binalardan mənzil alaraq qazanc əldə etməyə çalışırlar. Onlar bu proseslərdə təcrübəli olduqları üçün tikinti şirkətləri ilə əlaqəyə çıxır, bina təhvil verilənədək həm yüksək kirayə haqqı, həm də əlavə kvadratlar almağı bacarırlar. Beləliklə, qazanclarını daha da artırırlar. Ümumilikdə, əlavə kirayə pulu, təmir xərcləri və əlavə kvadratmetrlər hesablandıqda, söküntüdən əldə edilən xalis qazanc mənzilin ilkin dəyərinin 35-60%-ni təşkil edə bilir".



### "EV SÖKÜLSƏ DƏ, SÖKÜLMƏSƏ DƏ DƏYƏRİ ARTIR"

Ekspert bildirdi ki, evi bir dəfə söküntüyə düşüb bunun bəhrəsini görənlər gələcəkdə plana düşə biləcək mənzilləri hədəf seçirlər. Həmin evləri alıb sökülənə qədər kirayəyə verirlər, söküntü başladıqda isə əlavə imtiyazlar alaraq prosesdən qazanclı çıxırlar: "Belələrinin çox olması avtomatik olaraq 1-5 mərtəbəli köhnə evlərin qiymətlərində bahalaşma yaradıb. Hazırda bu investisiyanın heç bir riski yoxdur. Azərbaycanda hər il əmlak bazarında müvafiq faiz dərəcəsində qiymət artımı müşahidə olunur, alınan əmlak riskli hesab edilmir. Söküntüyə gedən evləri alanlar da bunu yaxşı bilirlər. Çünki bina bu il sökülməsə belə, gələn ilə qaldıqda əmlakın dəyəri müəyyən qədər artacaq. Söküntü reallaşdıqda isə qazanc qat-qat çox olacaq".

## "XRUŞŞOVKA"LARIN QİYMƏTİ DAHA UCUZ OLMALIDIR"

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc isə düşünür ki, "xruşşovka"ların qiymətindəki artım realdır, lakin bu tendensiya heç də təqdim olunan qədər şişirdilmiş səviyyədə deyil: "Qiymət artımı daha mərkəzdə və mərkəzə yaxın ərazilərdə yerləşən binalardadır. "Xruşşovka"ların qiymətlərindəki artım ümumi bazar tendensiyasından irəli gəlir. Lakin bir çox hallarda gəzən şayiələrə aldanıb kompensasiya əldə etmək məqsədilə investorların bu istiqamətdə axını da süni qiymət artımına səbəb olur. Söküntü zamanı verilən kompensasiya məbləğləri çox vaxt investorun gözləntilərini doğrultmur. Gözlənilən məbləği ala bilməyən və mənzilini sata bilməyən investor iflasa uğraya, evi dəyər-dəyməzinə satıla bilər. Əslində, satışında və ipoteka predmeti kimi çıxış etməsində məhdudiyyətlər olduğuna görə "xruşşovka"ların qiyməti digər layihələrdən daha ucuz olmalıdır".

V.Orucun fikrincə, bütün "xruşşovka"ların qiymətinin artacağını düşünərək spekulyasiyaya uymaq və söküntü zamanı yüksək kompensasiya əldə etmək məqsədilə əvvəlcədən bu binalardan mənzil almaq kifayət qədər risklidir: "Çünki istismar müddəti bitməsinə baxmayaraq, texniki vəziyyəti hələ də normal olan binaların sökülməyəcəyini də ehtimal etmək lazımdır. İnvestor müəyyən bir binadan mənzil alıb onun sökülməsini illərlə gözləyə bilər. Bu, yüz faizlik zəmanətli investisiya deyil. Söküntü olmazsa, həmin tikililərin satışı heç də asan deyil".



Anar Nəsirov

## "QİYMƏT ARTIMI BAZAR PRİNSİPLƏRİNƏ TAM UYĞUNDUR"



Vüqar Oruc

Sədrin sözlərinə görə, əmlakın qiymətini bazar müəyyən edir. Bəzən mənzil qiymətlərinin orta aylıq əməkhaqqı göstəriciləri ilə uzlaşmaması əsas gətirilərək qiymətlərin şişirdildiyi və ya bazarda "sabun köpüyü" yarandığı iddia edilir. Amma bütün tendensiyalar onu deməyə əsas verir ki, qiymət artımı bazar prinsiplərinə tam uyğundur: "Qiymətlərin bilərəkdən artırılmasına gəldikdə isə, təbii ki, hər bir mülkiyyətçi öz mənzilini daha baha satmaq istəyir. Rieltorlar da yüksək qiymətə satış reallaşdırmaqda maraqlıdırlar. Bəzi hallarda yaranan spekulyasiyalar da məhz daha çox qazanc əldə etmək istəyindən irəli gəlir".



# XƏZƏRDƏ ARTAN ZƏLZƏLƏ AKTİVLİYİ

Xəzər seysmik baxımdan tam sakit zona deyil. Amma belə ardıcıl və hiss olunan təkanların bir-birinin ardınca baş verməsi son illərlə müqayisədə daha çox diqqət çəkir. Bu aktivliyin əsas səbəbləri nədir və hansı geoloji proseslərlə əlaqələndirilir?



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Son vaxtlar Xəzər dənizi akvatoriyasında ardıcıl zəlzələlər müşahidə olunur. Seysmoloji xidmətlərin məlumat bazalarında bu hadisələr əsasən kiçik və orta maqnitudalı təkanlar kimi təsnif edilir. Aprel ayında Xəzər dənizində 16-dan 18-ə qədər zəlzələ qeydə alınıb. Bu aktivlik çərçivəsində, xüsusilə aprelin 8-də 5.3 maqnitudalı, aprelin 12-də isə 4.6 maqnitudalı zəlzələlər baş verib.

Xəzər seysmik baxımdan tam sakit zona deyil. Amma belə ardıcıl və hiss olunan təkanların bir-birinin ardınca baş verməsi son illərlə müqayisədə daha çox diqqət çəkir.

Bu aktivliyin əsas səbəbləri nədir və hansı geoloji proseslərlə əlaqələndirilir?

### "AKTİV BÖLGƏLƏRDƏ ZƏLZƏLƏLƏRİN QEYDƏ ALINMASI NORMALDIR"

Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin (RSXM) İnformasiya şöbəsinin müdiri Vüsalə Rafiqqızı bildirib ki, aktiv bölgələrdə vaxtaşırı zəlzələlərin qeydə alınması normaldır: "Azərbaycan ərazisi Alp-Himalay seysmik qırışıqlığının üzərində yerləşir və Xəzər dənizi seysmik baxımından aktiv bölgələrimizdən biridir. Aktiv bölgələrdə vaxtaşırı zəlzələlərin qeydə alınması halı mümkündür. Yəni ərazi seysmikdirsə, orada zəlzələ ehtimalı var. Xəzər dənizində və respublikanın quru ərazisində baş verən maqnitudası 3 və 3-dən yuxarı olan zəlzələlər haqqında məlumatları RSXM-in rəsmi internet səhifəsi üzərindən daim ictimaiyyətin diqqətinə çatdırırıq".

### SEYSMİK DİNAMİKA

Bakı Dövlət Universitetinin (BDU) seysmologiya və yer təkinin fizikası kafedrasının müdiri, dosent Əvəz Məmmədov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, hazırda hər hansı kəskin təhlükə ilə bağlı əsasımız yoxdur. Bunlar tamamilə normal, təbii hadisələrdir: "Hazırda dünyada zəlzələlərin qısamüddətli proqnozlaşdırılması elmi baxımdan mümkün deyil. Proqnozlar yalnız orta və uzunmüddətli seysmik risk qiymətləndirmələri əsasında aparılır. Azərbaycanda müşahidə olunan seysmik aktivlik təbii geoloji proseslərin nəticəsidir və bu proseslər zamanla dəyişir. Bəzən aktivlik artır, bəzən isə azalır. Bu, normal seysmik dinamika hesab olunur və həyəcan üçün əsas yaratmır".

### ZƏLZƏLƏNİN ƏSAS GEODİNAMİK SƏBƏBİ

Mütəxəssis vurğulayır ki, Xəzər hövzəsi Alp-Himalay seysmik qurşağının tərkib hissəsidir. Bu qurşaq Aralıq dənizindən başlayaraq Yunanıstan, Türkiyə, Qafqaz, İran ərazilərindən keçməklə Hindistanın şimalına qədər uzanır: "Azərbaycan, eləcə də Xəzər dənizi Alp-Himalay qırışıqlıq sisteminin tərkib hissələrindən olub, Avrasiya və Ərəbistan tektonik plitələrinin kollizion təmas zonasında yerləşir və kifayət qədər yüksək seysmik aktivliklə səciyyələnir. Beynəlxalq geodinamik tədqiqatlara əsasən, region Avrasiya plitəsi ilə Ərəb plitəsi arasındakı davamlı sıxılma zonasına daxildir. Bu plitə hərəkətləri nəticəsində yer qabığında gərginlik toplanır və həmin enerji qırılma zonalarında periodik olaraq boşalır. Məhz bu mexanizm zəlzələlərin əsas geodinamik səbəbi kimi qəbul edilir".



Vüsalə Rafiqqızı

### "GEOLOJİ BAXIMDAN NORMALDIR"

Mütəxəssisin sözlərinə görə, ölkə ərazisində bir neçə əsas seysmik aktiv zona mövcuddur: "Digər aktiv seysmik zonalar sırasında Şamaxı və İsmayıllı bölgələri də qeyd olunur. Bu ərazilər tarixən seysmik hadisələrin daha çox qeydə alındığı zonalar kimi tanınır. Bundan başqa, Böyük Qafqazın şimal-qərb hissəsində yerləşən Zaqatala və Şəki zonaları da aktiv seysmik bölgələr sırasındadır. Azərbaycan ümumilikdə orta seysmik aktivliyə malik ölkədir. Bu baxımdan ölkə Yaponiya, Filippin və İndoneziya kimi yüksək seysmik aktivliyə malik ölkələrlə müqayisədə daha aşağı risk qrupunda yer alır. Xəzər dənizinin xüsusilə cənub hissəsi geoloji baxımdan daha mürəkkəb quruluşa malikdir. Bu zona Cənubi Xəzər çökəkliyi ilə əlaqədar olaraq yüksək çöküntü qalınlığı və aktiv tektonik deformasiya ilə xarakterizə olunur. Regionda yer qabığının enməsi və sıxılması fonunda seysmik hadisələrin baş verməsi təbii proses sayılır. Azərbaycan ərazisi ümumilikdə bir neçə seysmik aktiv zonaya bölünür və bu zonalarda zəlzələlərin təbii şəkildə baş verməsi geoloji baxımdan normal proses hesab olunur".

## SEYSMOLOGİYA YALNIZ RİSK ZONALARINI MÜƏYYƏN EDİR

Məlumat üçün bildirək ki, xüsusilə Cənubi Xəzər hövzəsi mürəkkəb tektonik quruluşu ilə seçilir. Elmi ədəbiyyatda bu region yüksək sıxılmış çöküntü qatları, aktiv qırılma sistemləri və qeyri-bərabər deformasiya zonaları ilə xarakterizə olunur. Bu xüsusiyyətlər seysmik enerjinin həm lokal, həm də silsilə şəkildə boşalmasına şərait yaradır. Seysmoloji müşahidələrə dair beynəlxalq məlumat bazalarında (ISC, EMSC) Xəzər regionu daim aktiv zona kimi qeyd olunur. Buna görə də burada zəlzələlərin vaxtaşırı təkrarlanması qeyri-adi hal hesab edilmir. Əsas fərq müşahidə sıxlığındadır: müasir seysmik şəbəkələr əvvəlki dövrlərlə müqayisədə daha zəif təkanları da qeydə alır, bu isə "aktivliyin artması" təəssüratı yarada bilər.

Böyük zəlzələnin əvvəlcədən dəqiq proqnozlaşdırılması isə elmi baxımdan mümkün deyil. USGS və "Nature" icmallarına görə, hazırkı seysmologiya yalnız risk zonalarını müəyyən edə bilir, lakin konkret zaman və güc proqnozu verə bilmir.



Əvəz Məmmədov

# SÜRÜCÜLÜK VƏSİQƏMİZİ HANSI ÖLKƏLƏR TANIYIR?

Azərbaycan Respublikası sürücülük vəsiqəsinin tanındığı ölkələrin sayı ikitərəfli və beynəlxalq razılaşmalardan asılı olaraq dəyişir. Ümumilikdə, Azərbaycan vəsiqəsi bəzi ölkələrdə birbaşa tanınır, digərlərində isə beynəlxalq sürücülük vəsiqəsi ilə birlikdə qəbul edilir.



Ərşad Hüseynov

**SEVİNC ABBASOVA**

Azərbaycan və Belarus sürücülük vəsiqələrini qarşılıqlı olaraq tanıyacaq. Bu məsələ Milli Məclisdə müzakirəyə çıxarılan və artıq Prezident İlham Əliyev tərəfindən təsdiqlənən qanun layihəsində əksini tapıb. Sazişin məqsədi iki ölkə arasında nəqliyyat sahəsində hüquqi mexanizmlərin sadələşdirilməsi, vətəndaşların hərəkət azadlığının genişləndirilməsi və sürücülük vəsiqələrinin tanınması prosedurlarının qarşılıqlı əsasda asanlaşdırılmasıdır.

Ekspertlərin fikrincə, belə bir addım praktik baxımdan vətəndaşlara xaricdə avtomobil idarə edərkən əlavə imtahan və ya uzunmüddətli prosedurlardan keçmədən sənədlərini dəyişdirmək və ya istifadə etmək imkanı yaradır. Bu isə həm turizm, həm də əmək miqrasiyası baxımından əhəmiyyətli üstünlüklər formalaşdırır.

Maraqlıdır, Azərbaycanın sürücülük vəsiqəsi konkret olaraq hansı ölkələrdə tanınır?

### BƏZİ ÖLKƏLƏRDƏ BİRBAŞA TANINIR

Azərbaycan Respublikasının sürücülük vəsiqəsinin tanındığı ölkələrin sayı ikitərəfli və beynəlxalq razılaşmalardan asılı olaraq dəyişir. Ümumilikdə, Azərbaycan vəsiqəsi bəzi ölkələrdə birbaşa tanınır, digərlərində isə beynəlxalq sürücülük vəsiqəsi (IDP) ilə birlikdə qəbul edilir və ya müəyyən müddət üçün istifadə oluna bilir. Tanınma rejimi ölkələrin milli qanunvericiliyinə və qarşılıqlı sazişlərə əsaslanır.

Azərbaycanın sürücülük vəsiqəsinin tanındığı və ya istifadə oluna bildiyi ölkələr sırasında bir sıra qonşu və region ölkələri xüsusi yer tutur.




### 130-DAN ÇOX ÖLKƏDƏ "YAŞIL İŞIQ"

Hüquqşünas Ərşad Hüseynov məsələni "Kaspi"yə şərh edərkən bildirib ki, sürücülük vəsiqələrinin beynəlxalq səviyyədə tanınmasının əsas hüquqi bazası 1968-ci ildə təsdiq olunmuş Vyana Konvensiyasıdır. Bu Konvensiyaya qoşulan dövlətlərdə müəyyən standartlara uyğun sürücülük vəsiqələri əlavə ikitərəfli razılaşma olmadan da tanınır. Onun sözlərinə görə, hazırda bu Konvensiyaya qoşulan ölkələrin sayı təxminən 130-a yaxındır və bu, Azərbaycan vəsiqəsinin geniş coğrafiyada qəbul olunmasına imkan yaradır. Ə. Hüseynov qeyd edib ki, əslində sürücülük vəsiqələrinin qarşılıqlı tanınması ilə bağlı ayrıca ikitərəfli sazişlər daha spesifik və dərin hüquqi mexanizmdir. Onun izahına görə, bu cür sazişlər yalnız vəsiqənin tanınmasını deyil, həm də sürücülərin hazırlanma sistemi, imtahan prosedurları və sürücülük hüququnun əldə edilməsi qaydalarının qarşılıqlı qəbulunu əhatə edir. Bu isə dövlətlər arasında hüquqi və praktiki uyğunlaşmanı gücləndirir. O vurğulayıb ki, Azərbaycan artıq Türkiyə, Cənubi Koreya, Birləşmiş Ərəb Əmirlikləri ilə qarşılıqlı tanınma sazişlərinə malikdir və Belarusla da belə bir sazişin təsdiqlənməsi olması bu siyahını genişləndirir. Onun fikrincə, bu cür razılaşmalar xüsusilə uzunmüddətli yaşayan və ya işləyən şəxslər üçün əhəmiyyətlidir.

### ÜÇ AYDAN ALTI AYA QƏDƏR

Hüquqşünas əlavə edib ki, Vyana Konvensiyası çərçivəsində turistik məqsədlə xarici ölkələrə səfər edən Azərbaycan vətəndaşları üçün sürücülük baxımından ümumilikdə problem yaranmır və onlar bir çox ölkədə müvəqqəti olaraq Azərbaycan vəsiqəsi ilə avtomobil idarə edə bilirlər. Lakin bu imkan adətən müəyyən müddətlə, təxminən üç aydan altı aya qədər məhdudlaşır və bundan sonra həmin ölkənin qanunvericiliyinə uyğun olaraq yerli sürücülük vəsiqəsinə keçid tələb oluna bilər.

Onun sözlərinə görə, uzunmüddətli yaşayış və ya daimi fəaliyyət hallarında fərqli qaydalar tətbiq edilir və bəzi ölkələrdə sürücülük vəsiqəsinin yerli vəsiqəyə dəyişdirilməsi zamanı yenidən imtahan verilməsi tələb olunur. Məsələn, Almaniya və İtaliya kimi ölkələrdə bu praktika geniş yayılıb.

### ƏLAVƏ İMTAHAN VERMƏDƏN DƏYİŞƏ BİLƏCƏKLƏR

Ə. Hüseynov qeyd edib ki, qarşılıqlı tanınma sazişləri olan ölkələrdə bu proses daha sadələşdirilmiş şəkildə həyata keçirilir və bəzi hallarda imtahansız dəyişdirmə mümkündür. Belarusda da Azərbaycan vətəndaşları həmin ölkədə sürücülük vəsiqələrini əlavə imtahan vermədən dəyişə biləcəklər.

## "AVROPA İTTİFAQI ÖLKƏLƏRİ İLƏ DƏ BELƏ RAZILAŞMALARIN ƏLDƏ OLUNMASI MÜMKÜNDÜR"

Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı deyib ki, bu kimi sazişlər sürücülərin işini daha da asanlaşdırır. Onun sözlərinə görə, beynəlxalq konvensiyalara qoşulan ölkələr həmin konvensiyaya üzv olan digər ölkələrin sürücülük vəsiqələrini tanımalıdırlar. Lakin bəzi ölkələrin daxili qaydaları mövcuddur və onlar fərqli yanaşmalar tətbiq edirlər. Bu isə müəyyən hallarda çətinliklərin yaranmasına səbəb olur.

Ekspert qeyd edib ki, Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən başqa ölkələrə gedən sürücülərə həm də xarici sürücülük vəsiqəsi verilir. Eyni zamanda, mövcud qanunvericiliyə əsasən, xarici vətəndaş hansı ölkədə sürücülük vəsiqəsi əldə edibsə, Azərbaycanda daimi və ya müvəqqəti qeydiyyata düşdükdən sonra bir ay ərzində həmin vəsiqəni dəyişməlidir və milli sürücülük vəsiqəsi almalıdır. Bu proses zamanı yenidən imtahan verilməsi tələb olunmur. Şəxs yalnız aidiyyəti sənədləri təqdim etməlidir. Yol polisi təqdim edilən sənədlə bağlı müvafiq ölkəyə sorğu göndərir. Əgər cavabda sənədin qanuni yolla əldə edildiyi təsdiqlənərsə və onun istifadə müddəti etibarlı olarsa, həmin xarici vətəndaşın sürücülük vəsiqəsi dəyişdirilir. Bu halda şəxs xarici vəsiqəsini də özündə saxlaya bilir və ona Azərbaycan sürücülük vəsiqəsi təqdim olunur.

E.Muradlı gələcəkdə Avropa ölkələri ilə də belə razılaşmaların əldə olunmasının mümkünlüyünü istisna etməyib. Onun fikrincə, bu istiqamətdə ən optimal variant Avropa İttifaqı ilə vahid sənəd üzərində razılaşma əldə edilməsidir. Çünki Aİ-nin qəbul etdiyi qərarlar üzv ölkələrin hamısında tətbiq olunur və bu da məsələnin daha sistemli şəkildə həllinə imkan yaradır.

### DYP-DƏN SÜRÜCÜLƏRƏ TÖVSİYƏ

Daxili İşlər Nazirliyinin (DİN) Baş Dövlət Yol Polisi İdarəsindən isə "Kaspi"nin sorğusuna cavab olaraq bildirilib ki, Azərbaycan Respublikasında verilən sürücülük vəsiqələri bir sıra ölkələrdə tanınır: "Bu tanınma əsasən Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalar və ölkələrarası razılaşmalar çərçivəsində həyata keçirilir.

Eyni zamanda qeyd olunmalıdır ki, bəzi ölkələrdə sürücülük vəsiqəsinin istifadə müddəti məhdudlaşdırıla və ya əlavə olaraq beynəlxalq sürücülük vəsiqəsi (IDP) tələb oluna bilər. Bu səbəbdən vətəndaşlara xarici ölkələrə səfər etməzdən əvvəl həmin ölkənin müvafiq qaydaları ilə tanış olmaları tövsiyə edilir".



Elməddin Muradlı

# DƏB, OPERA VƏ FUTBOL ŞƏHƏRİ



Milan həmişə İtaliyanın Lombardiya regionunun ən vacib şəhərlərindən biri olub. Qərbi Roma imperiyasının və Lombard-Venesiya Krallığının paytaxtı kimi məşhurdur. Hər dövr şəhərdə kilsələr, evlər və bütöv məhəllələr şəklində iz buraxıb.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Milan həyatdan zövq almağı və əylənməyi sevən emosional insanların şəhəridir. Bu şəhərdə demək olar ki, il boyu festivallar keçirilir və bayramlar qeyd olunur.Yerli mənzərələr və görməli yerlər isə bu ajiotajı doğruldur. Burada dünyanın ən böyük Qotik kafedralı olan əfsanəvi Duomo di Milano, La Skala Opera Teatrı və Galleria Vittorio Emanuele II-nin heyrətamiz mozaikaları və şüşə tağları, Pinacoteca di Brera kimi muzeylər və incəsənət qalereyaları yerləşir.

2021-ci ildə “Şəhərdə yalnız gülümsəmək” haqqında qanun qəbul edilib. Hazırda bu qanunu pozmağa görə cərimə tələb olunmasa da, yerlilər gülərüz insanları xoşlayır.

### İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ CİDDİ ZİYAN GÖRÜB

Milan həmişə Lombardiya regionunun ən vacib şəhərlərindən biri olub. Qərbi Roma imperiyasının və Lombard-Venesiya Krallığının paytaxtı kimi məşhurdur. Hər dövr şəhərdə kilsələr, evlər və bütöv məhəllələr şəklində iz buraxıb.

İkinci Dünya müharibəsi zamanı şəhərə ciddi ziyan dəyib. Milan bombalanıb və atəşə tutulub, özünəməxsus memarlıq irsini itirib. Müharibədən sonra şəhər tədricən varlı şimalın mərkəzinə çevrilərək İtaliyanın ikinci ən böyük şəhərinə və ölkənin maliyyə və iqtisadi paytaxtına çevrilib. Bu gün Milan Avropanın əsas sənaye, maliyyə və iqtisadi mərkəzi olaraq tanınır.

Leonardo da Vinçinin özü tərəfindən dizayn edilmiş kanallar, moda nümayişləri, futbol azarkeşlərinin paradları, aparıcı moda evlərinin parlaq butikləri və canlı bit bazarları, Leonardonun Son Şam yeməyi kimi tarixi yerləri - bunların hamısı Milandır. İtaliya Fond Birjası da burada yerləşir. Milana səfər edən turistlərə “Dəb, opera və futbol dünyasına xoş gəldiniz” deyilir. Zəngin insanlar yaşamaq üçün bu şəhəri seçirlər. Milandan bir saatlıq məsafədə yerləşən Komo gölü ətrafındakı eyni adlı şəhər məşhurların istirahət və yaşayış yeri kimi tanınır.

### TİKİNTİSİ 600 İLƏ BAŞA GƏLƏN DUOMO

Milan təhlükəsiz şəhər hesab olunur. Amma səyahətçilərə xüsusən də ictimai nəqliyyatda, hava limanlarında və qatar stansiyalarında cib oğrularından ehtiyatlı olmaları tövsiyə olunur.

Milanın cazibədar tərəfini kəşf etmək, moda, futbol, alış-veriş və ya yaradıcı tərəfini araşdıra bilmək üçün şəhərlə yaxından tanış olmaq lazımdır. Əlbəttə, ilk tövsiyə olunan yer Duomo olur. Bu, şəhərin əsas kafedralı və inanılmaz dərəcədə gözəl qotik memarlıq abidəsidir. Duomo şəhərin simvoludur. Tikintisi 600 ilə başa gəlib. Üzərində 135 qüllə, 3000 dən çox heykəl var, 40 min ziyarətçi eyni vaxtda toplaşa bilir. Tarixi əhəmiyyətindən əlavə, Duomo möminlər üçün də vacib bir yerdir: Müqəddəs Xaç Mili burada xüsusi bir yuvada saxlanılır. İldə bir dəfə Milan yepiskopu onu oradan çıxarır və kilsə üzvlərinə göstərir.



### DÜNYA OPERA İFAÇILARI ÜÇÜN MƏBƏD SAYILAN MƏKAN

Duomo ilə yaxın məsafədə dünyanın məşhur opera teatrı - La Skala yerləşir. Milandakı bu ikonik məkan dünyaca məşhurdur. Memarlıq baxımından xüsusilə diqqətəlayiq olmasa da, ən vacib şeylər içəridə baş verir: La Skala teatr məkkəsidir. Opera binası 1778-ci ildə tikilib. Dünya opera ifaçıları üçün məbəd sayılır. Teatrın 2000 tamaşaçı tutumu var. Burada E.Karuso, M.Kallas, F.Şalyapin, L.Sobinov, M.Maqomayev kimi opera ulduzları çıxış ediblər. Yeri gəlmişkən, böyük Kallasın adı teatrın divarlarında əbədiləşdirilib, səhnədəki məşhur akustik nöqtə sayəsində dünyaca məşhur müğənninin səsi bütün auditoriyada eşidilib. Teatrın solunda La Skala-nın populyarlığına böyük məsuliyyət daşıyan Culio Rikordinin abidəsi ucalır. Hələ XIX əsrdə o, operanı dünya miqyasında populyarlaşdırıb və janrın pərəstişkarlarının zehnində aydın bir əlaqə yaradıb: opera = La Skala.

Bütün tarixi ərzində La Skala teatr mövsümünü yalnız iki dəfə ləğv edib. Bir dəfə İkinci Dünya müharibəsi zamanı, teatr bombardman nəticəsində dağıdılanda (və hətta o zaman da tamaşalar başqa binaya köçürülüb). İkinci dəfə isə COVID-19 pandemiyası zamanı.



### DÜNYANIN MODA PAYTAXTI

Sözsüz ki, Milan İtalyan modasının beşiyidir. Alış-veriş edənlər üçün əsl cənnətdir. Şəhərdə qlobal brendlərin və moda evlərinin butikləri var və hər kəs zövqünə və büdcəsinə uyğun bir şey tapır.



Milan həm də İtalyan mətbəxinin qastronomik mərkəzidir. Burada orijinal ənənəvi yeməkləri dada bilərsiniz. Yeri gəlmişkən, Milan etnik mətbəx müəssisələrinin sayına görə İtaliyanın rekord qıran şəhərlərindən biridir.

### AVROPANIN ƏN TARİXİ STADİONLARINDAN BİRİ



Futbola olan sevgi bu şəhərdə ayrıca zövqdür. Futbol həvəskarları bura gələndə “Milan” və “İnter” klublarının evi olan “San Siro” stadionunu görməyə tələsirlər. Bu il stadionun 100 illiyidir. Azarkeş tutumu təxminən 75.000 olan stadion Avropanın ən böyük və ən tarixi arenalarından biridir. Həyəcan yaradan tribunaları və atmosferi ilə məşhurdur. Hazırda stadion yenidən qurulmaq ərəfəsindədir.

Milanda inkişaf etmiş nəqliyyat infrastrukturu var. Köhnə Milan tramvayları isə unikal bir cazibədir. Şəhərin dəmiryol stansiyası böyük bir sənət əsəridir.



Bəzən bu şəhər haqqında “Milanda bir-iki abidədən başqa heç nə yoxdur, cansıxıcıdır” deyilir. İtalyanların bu fikirlərə belə bir cavabı var: “Bu şəhərə səpələnən italyan ruhunu hiss etmirsiniz? Bu şəhərdə yalnız gülümsəməlisiniz...”



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
2 MAY ŞƏNBƏ 2026

Albaniyanın paytaxtında keçirilən Avropa çempionatında Azərbaycan güləş məktəbi yenidən "köhnə qitə"nin ən güclüsü olduğunu sübuta yetirdi. Klassik güləş komandamız iki qızıl, üç bürünc, sərbəst güləşçilərimiz isə üç qızıl, iki gümüş və bir bürünc medal əldə etdilər.

# TİRANADA PARLAQ MƏNZƏRƏLƏR




Azərbaycan idmanından söz düşəndə ağla gələn ilk sahələrdən biri, şübhəsiz, güləşdir. Pəhləvanlıq ənənələrinin yaşadıldığı bu torpaqda güləş milli kimliyin bir parçasıdır. Elə buna görə də ölkəmizin beynəlxalq arenada ən çox uğur qazandığı sahənin məhz güləş olması heç də təsadüfi deyil. Pəhləvanlarımız bu gün də eyni dəst-xətti davam etdirirlər. Bu reallıq növbəti dəfə Avropa çempionatında öz təsdiqini tapdı. Albaniyanın paytaxtı Tiranada keçirilən mötəbər yarışda Azərbaycan güləş məktəbi yenidən "köhnə qitə"nin ən güclüsü olduğunu sübuta yetirdi.

**"KLASSİKLƏR"DƏN ARDICIL İKİNCİ ÇEMPİONLUQ**

Yarışa ilk olaraq yunan-Roma güləşçilərimiz qoşuldular. Millimiz uğurlu çıxış edərək çempion titulunu qorumağı bacardı. Tiranaya 10 idmançı ilə yollanan komandamızın heyətində beş güləşçi fəxri kürsüyə qalxmağı bacardı. Onlardan ikisi qızıl medal qazanıb Azərbaycan bayrağını dalğalandırdısa, üç pəhləvanımız "bürünc"lə geri döndü.

Millinin heyətində Həsrət Cəfərovla Qurban Qurbanov qızıl, Rəşad Məmmədov, Nihat Məmmədli və İslam Abbasov bürünc medal qazandılar. Xüsusilə, Cəfərovun nəticəsi diqqətəlayiqdir. Finalda türkiyəli Murat Fıratla gərgin qarşılaşmadan 7:5 hesablı qələbə ilə ayrılan idmançı tarixi uğura imza atdı. Belə ki, 4-cü dəfə Avropa çempionu olan Cəfərov Azərbaycan yunan-Roma güləşində yeni rekord müəyyənləşdirdi. Qurban Qurbanov isə ardıcıl 2-ci dəfə Avropanın ən güclüsü adını qazandı. O, həlledici görüşdə rusiyalı Adlet Tyulbayevə 4:2 hesabı ilə qalib gələrək titulunu qorudu, bununla da bir növ sabitlik mesajı vermiş oldu.

Yekunda klassik güləş komandamız iki qızıl, üç bürünc medal qazanmaqla 133 xalla yenidən Avropa çempionu adını qazandı. Türkiyə 121 xalla ikinci, Gürcüstan isə 118 xalla üçüncü yeri tutdu.

## Sərbəst güləşçilərimizdən tarixi rekord

Yunan-Roma güləşi üzrə millinin ardınca sərbəst güləş üzrə yığmamız da Avropanın zirvəsini fəth etməyi bacardı. Azərbaycan komandası altı çəkidə medal əldə etdi. Onlardan üçünün əyarı qızıl idi. Tiranada İslam Bazarqanov, Ali Tsokayev, və Giorgi Meşvildişvili himnimizi səsləndirməyə müvəffəq oldular. 57 kq-da yarışan İslam finalda rusiyalı Musa Mextixanovla qarşılaşdı. 8:6 hesabı ilə qələbə qazanan pəhləvanımız ilk dəfə böyüklər arasında Avropa çempionu adını qazandı. Ali Tsokayev finalda bolqarıstanlı Ahmed Batayevə 5:3 hesabıyla qalib gələrək debüt etdiyi Avropa çempionatında fəxri kürsünün ən yüksək pilləsinə qalxdı. Çempionatın son görüşündə isə Giorgi Meşvildişvili Macarıstan təmsilçisi Vladislav Baytsayevlə qarşılaşdı. Rəqibinə heç bir şans tanımayan təmsilçimiz titulunu qoruyaraq, 2-ci dəfə Avropanın ən güclüsü oldu. Sərbəst güləşdə Turan Bayramov və Arseniy Djioyev gümüş, Cəbrayıl Hacıyev isə bürünc medal qazandılar. Yekunda üç qızıl, iki gümüş və bir bürünc medal əldə edən millimiz 152 xal toplayaraq 6-cı dəfə Avropa çempionu oldu. Buna qədər Azərbaycan güləşin bu növündə 2009, 2017, 2022, 2023 və 2025-ci illərdə qitənin ən güclü ölkəsi olmuşdu. Millimiz Albaniyada medalların əyarına görə, son 17 ilin ən yaxşı nəticəsinə imza atdı. Üç qızıl, iki gümüş və bir bürünc medal 2009-cu ildən bu yana Avropa çempionatında sərbəst güləşdə ən yaxşı göstəricimizdir.

## MİLLİNİN QIZLARINDAN İKİ MEDAL

Azərbaycanın qadın güləşçiləri də Tiranadan əliboş qayıtmadılar. Düzdür, onların nəticələrini yunan-Roma və sərbəst güləşçilərlə müqayisə etmək mümkün deyil. Lakin hər halda iki medal əldə etmək də bir nəticədir. Beş qadın güləşçimizdən ikisi fəxri kürsüyə qalxmağı bacardı.




Jalə Əliyeva bürünc medal uğrunda görüşdə belaruslu Arina Demçankaya "tuş"la qalib gələrək üçüncü yeri tutdu. Bu, onun böyüklər arasında analoji yarışda üçüncü (1 gümüş, 2 bürünc) medalı oldu. Günay Qurbanovanın uğuru isə onun üçün daha əlamətdardır. Bürünc uğrunda görüşdə belaruslu Marta Hetmanavanı 7:5 hesabı ilə məğlub edən güləşçimiz ilk dəfə çıxış etdiyi Avropa çempionatında fəxri kürsüyə qalxmağı bacardı. Cəmi 18 yaşı olan idmançı gələcəyinin parlaq olduğunun siqnalını verdi.

## "QIZIL DUBL"UN DAVAMI NECƏ GƏLMƏLİDİR?




Həm yunan-Roma, həm də sərbəst güləşdə Avropanın ən güclüsü olan Azərbaycan komandası artıq bu üstünlüyünü sabitləşdirməkdədir. Millimiz son 5 ildə ikinci dəfə "qızıl dubl"a imza atdı. 2022 və 2025-ci illərdə olduğu kimi, bu dəfə də hər iki növdə bütün rəqiblər arxada qaldı. Lakin əldə olunan nəticələr arxayınlaşmaq üçün əsas vermir. Cəmi bir neçə ay sonra keçiriləcək dünya çempionatında mübarizə daha sərt olacaq. Bu dəfə təkcə Avropa deyil, bütün qitələrin ən güclüləri eyni döşəkdə qarşılaşacaq. Daha geniş perspektivdə isə hədəf Olimpiya Oyunlarıdır. Azərbaycan güləşçilərinin qazandığı 13 medalın 8-i olimpiya çəkilərində, 5-i isə qeyri-olimpiya çəkilərində əldə olunub. Bu balans gələcək seçimlər üçün ciddi siqnaldır. Avropa çempionatı yalnız medallar uğrunda yarış deyil, həm də milli komandanın əsas heyətinin formalaşdığı, seçimlərin dəqiqləşdiyi mühüm mərhələdir. Belə turnirlər məşqçilər üçün optimal heyəti müəyyənləşdirmək baxımından əvəzsiz rol oynayır. Ümumilikdə, Albaniyada keçirilən çempionatın nəticələri bu gün üçün parlaq mənzərə yaradır, sabah üçün isə böyük ümidlər və eyni zamanda ciddi məsuliyyət qoyur.

Qeyd edək ki, yunan-Roma güləşi və sərbəst güləş, həmçinin qadın güləşi üzrə medal qazanmış idmançıları, onların məşqçilərini Prezident İlham Əliyev də qəbul edib.